# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Bu gün Bilik Günüdür




4

№ 069 (7479)

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

15 sentyabr 2026-cı il.
Qiyməti 1 manat

# Elm və texnologiyaya DÖVLƏT DƏSTƏYİ

Prezident İlham Əliyev "SABAH.city" innovasiya şəhərciyinin birinci mərhələsinin açılışında iştirak edib




2

# Beynəlxalq güclərin şahmat taxtası



3

## Qafqaz İslam Ordusunun Bakı Zəfəri



14

## Məktəbdə süni intellekt dövrü başlayır: uşaqlar daha çox öyrənəcək, yoxsa düşünmək qabiliyyətini itirəcək?



16

## YAP ölkənin ictimai-siyasi həyatında əvəzsiz rol oynayır



10

## Əndazəsini aşan TOYLAR - bu gedişlə hara gedirik?



4

## Qlobal ticarət risk altında: El Nino dünya iqtisadiyyatını hədələyir



15

# Elm və texnologiyaya DÖVLƏT DƏSTƏYİ

## Prezident İlham Əliyev "SABAH.city" innovasiya şəhərciyinin birinci mərhələsinin açılışında iştirak edib

**Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 14-də Bakıda Elm və Təhsil Nazirliyinin Yüksək Texnologiyalar Parkında qurulan "SABAH.city" innovasiya şəhərciyinin birinci mərhələsinin açılışında iştirak edib. Elm və təhsil naziri Emin Əmrullayev dövlətimizin başçısına "SABAH.city" innovasiya şəhərciyi barədə məlumat verdi.**

Bildirildi ki, layihə ümumilikdə 20 hektarda icra olunacaq. Birinci mərhələ 5 hektardan çox ərazini və ümumilikdə 20 min kvadratmetr tikili sahəni əhatə edir. Burada tikinti işlərinə ötən ilin oktyabrında başlanılıb və bir-biri ilə əlaqələndirilmiş 4 korpusdan ibarət kompleks inşa olunub. Şəhərcikdə 5 restoran, market və tədbirlər zalı, həmçinin açıq idman infrastrukturu - basketbol, futbol meydançaları və 2 padel kortu yaradılıb, açıq havada istirahət zonaları, piyada və velosiped zolaqları, parklanma sahələri təşkil edilib.











Şəhərcikdə Bakı Dövlət Universitetinin, Azərbaycan Texniki Universitetinin, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin mühəndislik, informasiya texnologiyaları, tətbiqi elmlər istiqamətlərində təhsil alan 1500-dən çox tələbəsinin tədrisə və praktiki fəaliyyətə cəlb edilməsi nəzərdə tutulur. Şəhərciyin tam fəaliyyətə başlaması ilə isə gündəlik ziyarətçi sayının təxminən 3 min nəfər olacağı gözlənilir. Burada ASAN Süni İntellekt Mərkəzi (ASAN AI Hub) də yaradılıb. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev Prezident İlham Əliyevə ASAN Süni İntellekt Mərkəzi, "INNOLAND" İnkubasiya və Akselerasiya Mərkəzi, həmçinin "ASAN xidmət"in "Süni İntellekt Assistent" layihəsi barədə məlumat verdi.

ASAN Süni İntellekt Mərkəzi Azərbaycanda süni intellekt sahəsində innovativ təşəbbüsləri dəstəkləmək, tədqiqatçıları, dövlət qurumlarını, özəl sektoru və fərdi istifadəçiləri vahid rəqəmsal platformada (www.asanhub.ai) bir araya gətirmək, açıq innovasiya modelini təşviq etməklə dövlət, biznes və təhsil müəssisələri arasında əməkdaşlığın gücləndirilməsi məqsədilə yaradılıb. Bu günədək ümumilikdə 50 süni intellekt həlli təqdim olunub. ASAN Süni İntellekt Mərkəzi ölkədə fəaliyyət göstərən 8 universitet, Azərbaycan Milli Elmlər Akademiyası, bir sıra nüfuzlu xarici universitetlər (Sinxua Universiteti (Çin), Oksford Universiteti (Birləşmiş Krallıq) və Boğaziçi Universiteti (Türkiyə), eyni zamanda, digər beynəlxalq nüfuzlu tərəfdaşlarla əməkdaşlıq əlaqələri qurub.

"ASAN xidmət"in "INNOLAND" İnkubasiya və Akselerasiya Mərkəzindən bu günədək 150 startap yararlanıb, 4 startap xarici investorlar tərəfindən satın alınıb. "Süni İntellekt Assistent" platforması "ASAN xidmət"in müxtəlif fəaliyyət istiqamətləri barədə məlumatı sürətli, sadə və adi söhbət formatında əldə etmək, təhlil və proqnozlaşdırmaq imkanı yaradır.

"SABAH.city" innovasiya şəhərciyində Bakı Dövlət Universiteti, Azərbaycan Texniki Universiteti və Azərbaycan Dövlət Neft və Sənaye Universiteti tərəfindən yaradılan ümumilikdə 13 tədris və tədqiqat laboratoriyası var. Laboratoriyalarda süni intellekt, robototexnika, kompüter elmləri, kibertəhlükəsizlik, biotexnologiya, nanobiologiya, nanofizika, kimya, telekommunikasiya və digər prioritet elmi-texnoloji istiqamətlər üzrə tədqiqat və tətbiqi fəaliyyətlərin həyata keçirilməsi nəzərdə tutulur. Burada, eyni zamanda, 12 startapın yer aldığı "kovorkinq" (insanların və şirkətlərin işləməsi üçün nəzərdə tutulmuş ortaq iş məkanı) zonası, yerli və beynəlxalq texnologiya şirkətləri, korporativ tədqiqat və inkişaf mərkəzləri, həmçinin innovasiya ekosisteminin digər iştirakçıları üçün 22 ofis sahəsi var. Layihənin birinci mərhələsinə 3 ali təhsil müəssisəsi ilə yanaşı, 8 texnologiya və innovasiyayönümlü şirkət, 12 startap olmaqla ümumilikdə 23 əsas ekosistem iştirakçısı cəlb edilib.

Qeyd edək ki, layihənin icrasında əsas məqsəd ölkəmizin innovasiya, elm, təhsil və yüksək texnologiyalar ekosisteminin əsas iştirakçılarını vahid məkanda bir araya gətirməklə onların qarşılıqlı fəaliyyətini gücləndirən innovasiya mühitinin formalaşdırılmasıdır. "SABAH.city" bilik və texnologiyanın iqtisadi və sosial dəyərə çevrilməsini dəstəkləyən kompleks innovasiya platforması kimi mühüm rol oynamaqla uzunmüddətli perspektivdə insan kapitalının, tətbiqi elmin, texnologiya transferinin və Azərbaycanın innovasiya ekosisteminin rəqabət qabiliyyətinin daha da möhkəmlənməsinə töhfə verəcək.

# Prezident İlham Əliyev Müsəlman Ağsaqqalları Şurasının baş katibini qəbul edib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 14-də Müsəlman Ağsaqqalları Şurasının baş katibi Məhəmməd Əbdülsalamı qəbul edib. Söhbət zamanı Prezident İlham Əliyev ilə Məhəmməd Əbdülsalamın əvvəlki görüşləri məmnunluqla xatırlandı.***



Ölkəmizlə Müsəlman Ağsaqqalları Şurası arasında həyata keçirilən uğurlu əməkdaşlıq qeyd olundu. Eyni zamanda, İslam həmrəyliyinin möhkəmləndirilməsi istiqamətində Azərbaycanın qlobal səviyyədə oynadığı vacib rola toxunuldu, bu xüsusda Türk Dövlətləri Təşkilatının Müsəlman dini liderlərinin Bakıda keçirilən 7-ci görüşünün, həmçinin gələn il Azərbaycanda təşkil olunacaq İslam Əməkdaşlıq Təşkilatının Zirvə Toplantısının əhəmiyyəti vurğulandı. Ölkəmizdə dini münasibətlərin yüksək səviyyədə tənzimləndiyi qeyd edildi.

Söhbət zamanı Azərbaycan Prezidentinin bu ilin əvvəlində "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görüldüyü xatırlandı. Qonaq bu mükafatın sertifikatını dövlətimizin başçısına təqdim etdi.

# Beynəlxalq güclərin şahmat taxtası





## Ədalət, yoxsa ikili standartlar?

"Beynəlxalq güclər" ifadəsi dedikdə, yalnız öz milli sınırlarını deyil, qlobal siyasəti, iqtisadiyyatı və təhlükəsizlik arxitekturasını formalaşdırmaq imkanına malik olan superdövlətlər (məsələn, ABŞ və Çin) və onların çətiri altında fəaliyyət göstərən təsisatlar (BMT Təhlükəsizlik Şurası, ATƏT və BRİCS) nəzərdə tutulur. Nəzəri olaraq bu güclərin və institutların əsas missiyası beynəlxalq hüququ qorumaq, güclünün zəifə təzyiqinin qarşısını almaq və qlobal balansı təmin etməkdir. Lakin reallıq budur ki, beynəlxalq münasibətlər sistemində hüququn aliliyi deyil, "realpolitik" - yəni soyuq milli maraqlar hökm sürür.

Beynəlxalq güclərin ədalət və balans yaratmaq funksiyasının necə iflasa uğradığını görmək üçün uzağa getməyə ehtiyac yoxdur, Qarabağ münaqişəsinin 30 illik tarixi bu tezisin ən bariz faktoloji sübutudur.

## Qarabağ münaqişəsi və beynəlxalq iflicin faktologiyası

1993-cü ildə BMT Təhlükəsizlik Şurası Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən 822, 853, 874 və 884 saylı 4 qətnamə qəbul etdi. Eyni BMT TŞ başqa coğrafiyalarda (məsələn, 1990-cı ildə İraqın Küveytə təcavüzü zamanı) günlər ərzində hərbi sanksiya mexanizmlərini işə saldığı halda, Azərbaycana münasibətdə bu qətnamələr 27 il boyunca icrasız qaldı. Beynəlxalq güclər işğalçıya qarşı heç bir mexanizm və ya sanksiya tətbiq etmədilər.

Münaqişənin həlli üçün həmsədr seçilən üç beynəlxalq güc - ABŞ, Rusiya və Fransa - neytral vasitəçi olmalı idilər. Lakin onların fəaliyyəti sülh yaratmağa deyil, "idarə olunan dondurulmuş münaqişə" saxlayaraq regionda öz təsir imkanlarını qorumağa yönəldi. Rusiya hərbi varlığını və Cənubi Qafqazda monopoliyasını saxlamaq, Fransa (və Qərbdəki bəzi dairələr) öz daxili siyasətindəki güclü erməni lobbisinin səslərini qazanmaq, ABŞ isə regionda enerji dəhlizlərinə nəzarət etmək marağından çıxış edirdi. Nəticədə, 30 il ərzində vasitəçilər işğala uğrayanla işğalçını eyniləşdirən "tərəfləri təmkinli olmağa çağırırıq" bəyanatlarından o tərəfə keçmədilər.

## "Güclü haqlıdır" prinsipi və ikili standartlar

Beynəlxalq hüququn təməl prinsiplərindən olan "ərazi bütövlüyü" prinsipi digər regionlarda (məsələn, Ukraynanın ərazi bütövlüyü məsələsində) heç bir tərəddüd edilmədən müdafiə olunduğu halda, mövzu Azərbaycanın işğal olunmuş torpaqları olduqda "xalqların özünütəyinetmə hüququ" kartı ilə manipulyasiya edildi. Bu, beynəlxalq qanunların deyil, subyektiv maraqların tətbiq edildiyini göstərən açıq disbalans faktıdır.

2020-ci ildə İkinci Qarabağ Müharibəsi və 2023-cü ilin antiterror tədbirləri göstərdi ki, beynəlxalq güclər dünyada ədaləti bərpa etmək gücündə və ya həvəsində deyillər. Azərbaycan öz ərazi bütövlüyünü və beynəlxalq hüququ yalnız öz hərbi-diplomatik gücü hesabına bərpa etməyə məcbur oldu. Şərqi Avropadan Yaxın Şərqə qədər baş verən digər qlobal böhranlar da bu reallığı təsdiqləyir. Beynəlxalq güclər dünyada balans deyil, nüfuz zonaları yaradırlar. Onların siyasəti mənəvi və ya hüquqi ədalətə deyil, milli maraqların utilitar hesablamalarına dayanır. Beynəlxalq hüquq norma və prinsipləri yalnız böyük güclərin maraqları ilə üst-üstə düşdükdə "xatırlanır" və alət kimi istifadə olunur.

Müasir beynəlxalq arxitektura ədalət paylayan mexanizm olmaqdan çıxıb. Qarabağ münaqişəsinin həlli təcrübəsi bir daha sübut etdi ki, qlobal siyasətdə əsas balans yaradan faktor beynəlxalq güclərin nümayiş etdirdiyi "pafoslu ədalət" deyil, dövlətlərin öz suverenliyini və hüququnu qorumaq üçün sahib olduğu real gücdür.

Müasir dünya arxitekturasında beynəlxalq güclər artıq pərdəarxası "səhnə rejissoru" rolundan çıxaraq, geosiyasi toqquşmaların bilavasitə ön cərgəsində dayanan əsas iştirakçılara çevriliblər. Keçmişdə münaqişələr daha çox lokal regional aktorlar arasında gedirdisə, bu gün yerli münaqişələr sadəcə böyük güclərin açıq-aşkar toqquşduğu poliqonlardır. Qlobal Qərb / Qlobal Şimal (ABŞ, Aİ, NATO müttəfiqləri) ilə Qlobal Şərq / Qlobal Cənub (Çin, Rusiya, BRICS bloku və inkişaf etməkdə olan ölkələr) arasındakı qütbləşmə artıq ideoloji deyil, resurslar, logistika marşrutları və yeni dünya nizamının qaydalarını yazmaq uğrunda gedən açıq savaşdır.

## Dünyamızı nə gözləyir?

Dünya tək bir supergücün (ABŞ) hegemonluq etdiyi "birqütblü nizam"dan çoxqütblü, lakin qaydasız bir modelə keçir. Bu, vahid qlobal iqtisadiyyatın parçalanması, texnologiya, valyuta (dolların mövqeyinin zəiflədilməsi cəhdləri) və logistikada ayrı-ayrı blokların yaranması ilə nəticələnir.

Açıq nüvə qarşıdurması riski yüksək olduğu üçün güclər mübarizəni regional dəhlizlər (Zəngəzur, Orta Dəhliz, Şimal-Cənub, IMEC), kibermekan və kritik resurslar (nadir metallar, enerji) üzərindən aparırlar. BMT kimi 1945-ci ilin nəticələrinə dayanan strukturlar effektivliyini tamamilə itirib. "Güclünün hüququ" prinsipi beynəlxalq hüquq normalarını birdəfəlik üstələyib. Mövcud şəraitdə ən böyük sual budur: Bu qütblər arasında balansı kim qoruyacaq? Klassik beynəlxalq institutlar (BMT, ATƏT) bu funksiyanı itirdiyi üçün səhnəyə yeni tipli "hakimlər" və ya vasitəçilər çıxır.

## Regional orta güclər

Qlobal hakim rolunu vahid bir təşkilat deyil, hər iki qütblə danışmaq bacarığı olan müstəqil, praqmatik dövlətlər oynamağa başlayıb. Türkiyə, Səudiyyə Ərəbistanı, BƏƏ, Qətər və müəyyən dərəcədə Azərbaycan kimi dövlətlər Qərb və Şərq/Cənub arasında spesifik böhranlarda yeganə etibarlı vasitəçi platformalarına çevrilirlər.

BRICS və Şanxay Əməkdaşlıq Təşkilatı kimi platformalar özlərini Qərbin monopoliyasına alternativ "yeni ədalət məkanları" kimi təqdim etməyə çalışsalar da, onların daxilindəki maraq toqquşmaları (məsələn, Hindistan və Çin rəqabəti) onların tam neytral hakim olmasına imkan vermir.

Dünyanı yaxın gələcəkdə mütləq sülh və ya vahid bir "beynəlxalq hakim" gözləmir. Əksinə, davamlı lokal krizislər və bu krizisləri tənzimləməyə çalışan praqmatik regional güclərin vasitəçiliyi əsas reallığa çevriləcək. Bu yeni dünyada ən təhlükəsiz və diktə edən tərəflər - ideoloji cəbhələrə kor-koranə qoşulmayan, öz suveren hərbi və iqtisadi gücünə arxalanan və qütblər arasında balansı saxlayan dövlətlər olacaq.

***V.VƏLİLİ***



# Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin milli təhlükəsizlik müşavirini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 14-də Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) milli təhlükəsizlik müşaviri, Əbu-Dabi Əmirliyi hakiminin müavini Şeyx Tahnun bin Zayed Al Nəhyanı qəbul edib. Qonaq ilk növbədə Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın salamlarını dövlətimizin başçısına çatdırdı. Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Şeyx Məhəmməd bin Zayed Al Nəhyana çatdırmağı xahiş etdi. Söhbət zamanı ölkələrimiz arasında strateji tərəfdaşlıq əlaqələrinin uğurla inkişaf etdiyi bildirildi, ikitərəfli əməkdaşlığın müxtəlif istiqamətlərdə genişlənməsindən məmnunluq ifadə olundu. Münasibətlərimizin möhkəmlənməsində Azərbaycan və BƏƏ prezidentlərinin şəxsi dostluq əlaqələri, dövlət başçılarının qarşılıqlı səfərləri və görüşlərinin mühüm rol oynadığı vurğulandı.

Əməkdaşlıqla bağlı məsələlərin müzakirəsi baxımından Birləşmiş Ərəb Əmirliklərindən böyük nümayəndə heyətinin ölkəmizə səfərinin əhəmiyyətinə toxunuldu. Sonra Prezident İlham Əliyev və Birləşmiş Ərəb Əmirliklərinin milli təhlükəsizlik müşaviri Şeyx Tahnun bin Zayed Al Nəhyanın iştirakı ilə sənədlərin imzalanması mərasimi oldu. Mərasimdə "Azərbaycanda bərpaolunan enerji layihələrinin işlənib hazırlanması məqsədilə "Abu Dhabi Future Energy Company" - "Masdar" və "AGEC" arasında əməkdaşlıq Sazişi", "Azərbaycan İnvestisiya Holdinqi ilə "L'IMAD HOLDING COMPANY PJSC" arasında strateji əməkdaşlıq Sazişi", "AzerGold" Qapalı Səhmdar Cəmiyyəti ilə "Terra Mining Ltd" arasında "Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ərazisində mineral-xammal potensialının və mədən sahələrinin birgə qiymətləndirilməsi və kəşfiyyatı haqqında Saziş", Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi və "GROUP 42 Holding Ltd" arasında "Azərbaycan Respublikasında Data Mərkəzinin, Yüksək Performanslı Hesablama və Süni İntellekt İnfrastrukturunun inkişafı üzrə əməkdaşlığa dair Anlaşma Memorandumu", Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi (Azərbaycan Respublikasının adından çıxış edən) və "XRG SGC LIMITED" arasında "Cənub Qaz Dəhlizi" Qapalı Səhmdar Cəmiyyəti ilə bağlı Səhmdarlar Müqaviləsi", həmçinin Energetika Nazirliyi, SOCAR və "Masdar" arasında "Neftçala 315 mvt Günəş fotovoltaik layihəsi üzrə maliyyə bağlanışının baş tutmasının təsdiqi" sənədi imzalandı.

# Bu gün Bilik Günüdür




***Azərbaycanda 15 sentyabr tarixi Bilik günü kimi qeyd olunur. Bu gün 2004-cü ilə qədər sentyabrın 1-nə təsadüf edirdi. Lakin cənab prezident İlham Əliyevin 21 avqust 2004-cu il tarixli fərmanına əsasən Azərbaycanın bütün təhsil müəssələrində dərslərin 15 sentyabrdan başlanması qərara alınıb və beləliklə həmin gün "bilik günü" kimi qeyd olunur. Azərbaycanda dövlətin təhsilə diqqət və qayğısı bu sahənin ən inkişaf etmiş ölkələr səviyyəsinə yüksəlməsinə geniş imkan yaradıb. Ümummilli lider Heydər Əliyevin siyasi kursunun uğurla davam etdirilməsi, möhtərəm Prezidentimiz İlham Əliyevin təhsilə, təhsil işçilərinə diqqət və qayğısı, səmərəli fəaliyyət üçün yaratdığı əlverişli şərait və imkanlar müntəzəm xarakter daşıyır. Bu gün Azərbaycanda təhsilə olan diqqət, Azərbaycan üçün təhsilin inkişafı prioritet sahələrdən biri hesab edilir.***

Təbii ki, bu günü daha çox səbirsizliklə gözləyənlər bu il birinci sinfə gedəcək şagirdlər və I kursa qəbul olan tələbələrdir. Hər bir insanın həyatında bu günün özəl yeri var. Məktəb həyatına ilk çağırış, ilk zəng. Ömrün ən unudulmaz bir zamanına çevrilən bu zəngin sədası illər, qərinələr ötsə də, unudulmur. Bu gün ölkəmizdə məktəbə qədəm qoyan hər bir məktəblinin keyfiyyətli və fasiləsiz təhsil alması üçün bütün imkanlar təmin edilib. Təhsilin keyfiyyətinin yüksəldilməsi üçün dövlətimiz tərəfindən yüksək şərait yaradılıb. Azərbaycanın dünyaya inteqrasiya olunduğu zamanda təhsilimizə yönəlmiş diqqət, məhz bu sahədə zamanın tələblərini ödəyə biləcək ziyalıların yetişməsinə doğru uğurlu bir addımdır. İnsanların həvəslə gözlədiyi və böyük məhəbbətlə qeyd etdiyi bu günün kəsb etdiyi mənanın arxasında böyük dəyərlər dayanır. Bu dəyərlərin ən başlıcası isə müasir dövrümüzdə Azərbaycanın gələcək inkişafını təmin edə biləcək, eyni zamanda, vətənpərvərlik ruhunda milli-mənəvi dəyərlərə söykənən mütəxəssislərin təhsilə mükəmməl olaraq yiyələnməsidir. Azərbaycan Prezidenti İlham Əliyevin təhsili dövlət siyasətinin prioritetlərindən biri kimi diqqətdə saxlaması, bu sahədə köklü islahatların aparılması təhsilin məzmun və keyfiyyətinə təsirini göstərir. Orta ixtisas məktəblərində təhsilin idarə edilməsi, eləcə də, onun keyfiyyətinin yaxşılaşdırılması sahəsində kifayət qədər irəliləyişlərin əldə olunması təhsilli, bilikli, savadlı mütəxəssislərin yetişməsinə səbəb olub. Şagirdlərin elmin sirlərinə dərindən yiyələnmələri üçün hərtərəfli imkanlar açır.



## ƏSAS HƏDƏFLƏR

Dövlətimizin başçısının təhsilə qayğısı nəticəsində keyfiyyətli insan kapitalının hazırlanması prosesinin mühüm mərhələsi olan məktəbəqədər təhsildə göstəricilər yüksəlib. Azərbaycan təhsilinə dövlət tərəfindən göstərilən diqqətin bariz nümunələrindən biri məktəb tikintisinin geniş vüsət almasıdır. Ölkəmizdə yeni məktəb binaları, əlavə korpuslar tikilib və əsaslı təmir olunub. Yeni məktəblərin tikintisi, əlavə korpusların inşası, onların əsaslı təmiri, müasir avadanlıqlarla təminatı, infrastrukturunun yeniləşdirilməsi nəticəsində, ümumilikdə, ölkə üzrə 1 milyondan çox şagirdin təlim şəraiti yaxşılaşdırılıb. Bütün bu işlər, ilk növbədə, şagirdlərin ən yüksək səviyyədə təhsil almaları, onların elmin sirlərinə daha dərindən yiyələnmələri üçün hərtərəfli imkanlar açır. Eyni zamanda, müəllim kollektivinin yüksək səviyyədə çalışması üçün geniş imkanlar yaradır.

Əlamətdar haldır ki, yeni tədris ilində işğaldan azad olunan ərazilərimizdə ilk zənginin səsi eşidilir. Onlar bu torpaqda - əzəli torpaqlarımızda elmin sirlərinə bələd olub, Vətən torpağının müqəddəsliyini bir daha təhsilverənlərdən əxz edirlər. Əlifbamızın ilk hərfi olan Ana, Azərbaycan sözlərinin dərin mənasını dərk edirlər. "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"ndan irəli gələn "keyfiyyətli insan kapitalının hazırlanması", "təhsilin keyfiyyətinin yaxşılaşdırılması məqsədilə müəllim-pedaqoji heyətin inkişafı və motivasiyası" kimi prioritet-strateji istiqamətlər təhsilin inkişafına olan xüsusi diqqətinin göstəricisidir.Təhsilin Azərbaycan məktəblilərinə verdiyi imkanlardan kifayət qədər bəhrələnən yeniyetmələr istər Azərbaycanın daxilində, istərsə də, ondan kənarda öz təhsillərini davam etdirmək iqtidarındadırlar. Bu da müstəqil Azərbaycan dövlətinin gənclərə verdiyi ən böyük töhfələrdən biridir. Son illərdə məktəblilərin dərsliklərlə pulsuz təmin edilməsini və s. mühüm halların baş verməsi, məhz görülən işlərin məntiqi nəticəsi kimi qiymətləndirilir.Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş "Təhsilin inkişafı üzrə Dövlət Strategiyası" təhsilin keyfiyyətinin yaxşılaşdırılması, təhsili-idarəetmə sisteminin təkmilləşdirilməsi, insan resurslarının inkişaf etdirilməsi, müəllimin karyera imkanları, fəaliyyətinin stimullaşdırılması və müasir təfəkkürlü Azərbaycan vətəndaşının yetişdirilməsinin əsas hədəflərindəndir. Əlbəttə ki, Zəfər qazanmış Azərbaycan xalqının övladlarının qarşısında geniş imkanlar açılmaqla yanaşı, üzərilərinə də böyük məsuliyyət düşür. Onlar Vətənin gələcək qoruyucularıdır. 44 günlük Vətən müharibəsində məktəb partası arxasında yetişən vətənpərvər gənclər öz iradə və vətən sevgilərini nümayiş etdirdilər. Onların belə vətənpərvər ruhda böyümələri üçün dövlətimiz tərəfindən ayrılan diqqət və qayğının nəticəsidir ki, düşməni əzəli torpağımızdan mərdliklə qovaraq, onlara dərs verdilər. Beləliklə, sentyabrın 15-ı ölkəmizin bütün ümumtəhsil məktəbləri və ali təhsil ocaqlarında yeni dərs ili başlayır. Yeni dərs ilində bütün təhsil işçilərini, tələbə və şagirdləri yeniliklər gözləyir. Yeniliklər isə, həm də uğurların başlanğıcı deməkdir. Yeni dərs iliniz uğurlu olsun!

***Zümrüd BAYRAMOVA***



MƏTLƏB
Metlebsalahov@mail.ru

# Əndazəsini aşan TOYLAR - bu gedişlə hara gedirik?

***Əndazəsini aşan, artıq insanlarda ikrah və qıcıq yaradan TOYLARIMIZ barədə danışacam. O toylardan ki, aylıq 400-500 manat orta əməkhaqqı olan bir cəmiyyətdə 300-500 nəfərlik, stolun biri də 100 manatdan 300 manata qədər yüksələn şadlıq saraylarında toy əvəzinə cibsoydu mərasiminə çevrilib. Üstəgəl toyda bütün milli dəyərlərimizə zidd olan iyrənc "adətlərin" baş alıb getməsini də əlavə edirəm ki, toy əvəzinə hansı gülünc vəziyyətlə üzləşdiyimizi yaxşı dərk edək.***

Hələ fonorqramma ilə ağzını marçıldadan bahalı müğənnilərə yarım saatına, bir saatına görə verilən 5-10 min manat arası pulları demirəm hələ.

Əvvəla ondan başlayaq ki, Azərbaycanda artıq yarım əsrə qədərdir ki, xalqımızın adət-ənənəsinə uyğun ənənəvi toy mərasimlərimiz tarixin arxivinə köçüb. Azı 40 ilə yaxındır ki, biz şıdırığı, daha çox bayağı və həm də özünü reklam xarakteri daşıyan toy məclisləri ilə məşğuluq. Bu proses xüsusilə 2000-ci illərin əvvəllərindən daha gur hal almağa başlayıb.

Klassik toy adətlərimizdə daha çox sevincimizi bölüşmək, gənclərin ailə, yurd-yuva qurmasını qeyd edirdiksə, son 30-40 il ərzində daha çox var-dövlət, dost-tanış reklamı, hətta ilk növbədə, pul toplamaq istəyi ən nəcib məqsədlərin qarşısında gəlir. Əvvəllər el-obada toy mağarları vardı, heyvanlar kəsilirdi, böyük qazanlarda yeməklər bişirilərdi toydan öncə. Amma məlumdur ki, artıq internet əsrində olduğumuz üçün, həm də günü bu gün kənd təsərrüfatımızın özünün qədim toylarımız kimi yoxa çıxdığı bir dövrü yaşayırıq. İş o yerə çatıb ki, hətta yas məclislərimiz belə bahalı restoran və şadlıq saraylarında qeyd edilir. Yəni bu dərəcədə "yenilənmişik".

Mən deyərdim, hazırda Azərbaycanda toy məclisləri daha çox biznes və özünü reklam mənası daşıyır. Toy sahibi əsasən vaxtilə toy məclislərinə getdiyi insanlardan "pulunu geri almaq" üçün azı 200-300 nəfərlik şıdırığı toy təşkil edir. Ən dəhşətlisi odur ki, toy menyularımızın özü o dərəcədə əcaib forma alıb ki, milli xörəklərimizdən daha çox əcnəbi təamlar süfrəmizdə ağalıq edir. Toy stolunda dadına bələd olmadığın yüzlərlə təam qoyulur və bunun sağlamlığımız üçün ziyanlı olub-olmaması heç kimin vecinə belə deyil. Əslində, toylarımızda qida təhlükəsizliyi və sağlamlıq nəzarəti ayrıca bir mövzu və aktual məsələdir hazırda. Təəssüf ki, bu işdə də hərcmərclik hökm sürür. Nəzərə alsaq ki, toylarımızda azı 100-200 adam iştirak edir və bu insanların təhlükəsizliyi, zəhərlənmədən qorunması ən vacib məsələdir.

Hə, gələk əsas məsələyə. Biz toylarımızda say məhdudiyyəti qoya bilərikmi? - qətiyyən YOX! Səbəbini deyim sizə. Əvvəla bunun üçün bizim toy adətinə olan münasibətimiz və baxış bucağımız dəyişməlidir. Azərbaycanda toy mərasiminə bütün qohum və nəsil təmsilçiləri qatılırlar. Sən kiməsə "hər evdən 1 nəfər iştirak etsin, yaxud biz 20 nəfərlik balaca şadyanalıq edəcəyik" deyə bilməzsən. O saat yaxından-uzaqdan məzəmmət və nifrət dolu baxışlar dikiləcək sizə. Biz internet əsrində, süni intellekt zamanında yaşasaq da, min illik zərərli vərdişlərimizdən qurtula bilmirik.

Bir çox Avropa ölkələrində olduğu kimi, 15-20 nəfərlik ev və ya bağ şəraitində şadyanalıq təşkil etmək vərdişini aşılamalıyıq. Axı balacadan böyüyə qədər bütün nəslin, üstəlik, iş yoldaşları və ildə bir dəfə salam verdiyin insanlar da daxil hər kəsin toy məclisinə axışmasına nə ehtiyac var? Nədən sadaladığım kimi, 15-20 nəfərlik şadyanalıq təşkil etmək adəti yaratmayaq? Məcburdurmu bir nəfər üçün azı 100-150 manata başa gələn yüz cür təamlarla zəngin 200-500 nəfərlik toy keçirmək? İlk növbədə toya biznes və qazanc kimi baxmaqdan beynimizi xilas etməliyik. Bütün inkişafların ana sütunu şüur və düşüncə dəyişikliyidir. Bacaracağıqmı? - buna inamım çox azdır, lap az...

# YAP əməli fəaliyyəti ilə xalqın böyük rəğbətini qazanıb

**Sentyabrın 11-də Yeni Azərbaycan Partiyası (YAP) Zaqatala rayon təşkilatının XII konfransı keçirilib. Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, abidənin önünə gül dəstələri düzülüb.**

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP Zaqatala rayon təşkilatının sədri Fərid Ramazanov hesabat məruzəsi ilə çıxış edib. O, Yeni Azərbaycan Partiyasının ölkəmizin ictimai-siyasi həyatında mühüm rol oynadığını vurğulayıb. F.Ramazanov partiyanın cəmiyyətin böyük etimadını qazandığını və dövlətçilik prinsiplərinin möhkəmləndirilməsinə böyük töhfələr verdiyini bildirib.








Zaqatala Rayon İcra Hakimiyyətinin başçısı Mübariz Əhmədzadə Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kursun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində Azərbaycanın mühüm nailiyyətlər qazandığını bildirib. O, ”Xalqın YAP-a göstərdiyi etimad partiyanın dövlətçilik prinsiplərinə sadiq fəaliyyətinin nəticəsidir”, - deyə vurğulayıb.

Milli Məclisin deputatı Asif Əsgərov çıxışında Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətinin ölkənin hərtərəfli inkişafına verdiyi töhfələrdən danışıb. O, xalq-iqtidar birliyi nəticəsində Azərbaycanın tarixi nailiyyətlər əldə etdiyini diqqətə çatdırıb.

Partiya veteranları Tahir Məmmədov və Elmira Hacıyeva Yeni Azərbaycan Partiyasının keçdiyi şərəfli yoldan, partiyanın fəaliyyətində veteranların rolundan söz açıblar. Onlar gənc partiya üzvlərinin dövlətçilik ənənələrinə sədaqət ruhunda fəaliyyət göstərməsinin vacibliyini vurğulayıblar.

Çıxış edən Kəpənəkçi kənd ərazi partiya təşkilatının sədri Xuraman Şabanova və Təhsil ərazi partiya təşkilatının sədr müavini Rəcəb Əlizadə ərazi partiya təşkilatlarının fəaliyyətindən, partiya üzvlərinin rayonun ictimai-siyasi həyatında fəal iştirakından söz açıblar.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Xəqani Tağıyev Yeni Azərbaycan Partiyasının VII qurultayından sonra fəaliyyətin daha səmərəli qurulması istiqamətində görülən işlərdən danışıb.

Konfransda YAP Zaqatala rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib. Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# Partiyamızın hədəfləri xalqın milli məqsədlərini əks etdirir

**Sentyabrın 11-də Yeni Azərbaycan Partiyası (YAP) Sabunçu rayon təşkilatının X konfransı keçirilib. Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin büstü ziyarət edilib, abidənin önünə gül dəstələri düzülüb.**

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP Sabunçu rayon təşkilatının sədri Araz Xudadanov hesabat məruzəsi ilə çıxış edib. O bildirib ki, Azərbaycanın davamlı inkişafında Yeni Azərbaycan Partiyasının özünəməxsus rolu var. A.Xudadanovun sözlərinə görə, 2021-ci il martın 5-də keçirilən VII qurultay partiyanın müasir çağırışlara uyğun olaraq fəaliyyətinin gücləndirilməsi baxımından mühüm mərhələ olub. ”YAP Sabunçu rayon təşkilatının fəaliyyəti də məqsədyönlü şəkildə təşkil edilib” - deyən məruzəçi əlavə edib ki, hesabat dövründə təşkilati işin daha da təkmilləşdirilməsi, partiya üzvlərinin ictimai-siyasi fəallığının artırılması, siyasi maarifləndirmə və ideoloji işin səmərəli təşkili əsas istiqamətlərdən olub.








Sabunçu Rayon İcra Hakimiyyətinin başçısı Adil Vəliyev bildirib ki, Yeni Azərbaycan Partiyasının yaranması xalqımızın milli iradəsinin, dövlətçilik ənənələrinə sədaqətinin və Azərbaycanın parlaq gələcəyinə inamının ifadəsi idi. Onun sözlərinə görə, qısa müddət ərzində geniş xalq dəstəyi qazanan partiya ölkənin ictimai-siyasi həyatında aparıcı siyasi qüvvəyə çevrilib. A.Vəliyev, həmçinin Sabunçu rayonunda həyata keçirilən abadlıq-quruculuq işləri və bu prosesdə partiya üzvlərinin fəal iştirakı barədə fikirlərini bildirib.

YAP İdarə Heyətinin üzvü, Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradov çıxışında qeyd edib ki, şərəfli yol keçən Yeni Azərbaycan Partiyası çoxsaylı tarixi uğurlar əldə edib. O bildirib ki, Prezident, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan davamlı inkişaf yolunda inamla irəliləyir. Ə.Muradov YAP Sabunçu rayon təşkilatının fəaliyyətini müsbət qiymətləndirərək təşkilata gələcək fəaliyyətində uğurlar arzulayıb.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin müdir müavini Rafael Gülməmmədov Yeni Azərbaycan Partiyasının qazandığı uğurlarla yanaşı, qarşıda dayanan vəzifələrdən də bəhs edib. O bildirib ki, YAP Sabunçu rayon təşkilatı qarşıya qoyulan vəzifələri layiqincə yerinə yetirib.

”Sülh küçəsi 32” ünvanı üzrə ərazi partiya təşkilatının sədri Mehriban Hacıyeva, ”S.Hüseyn küçəsi 1” ünvanı üzrə ərazi partiya təşkilatının sədri Kərim Aşurov və partiya fəalı Zeynəb Vəlizadə Azərbaycanın öz ərazi bütövlüyü və suverenliyini təmin etmiş güclü dövlət kimi çıxış etdiyini diqqətə çatdırıblar. Bildirilib ki, Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən genişmiqyaslı quruculuq işləri ölkəmizin yeni inkişaf mərhələsinə qədəm qoyduğunu nümayiş etdirir.

Konfransda YAP Sabunçu rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib. Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# YAP mütərəqqi ideyaları reallaşdıran siyasi qüvvədir

***Sentyabrın 11-də Yeni Azərbaycan Partiyası (YAP) Cəlilabad rayon təşkilatının XI konfransı keçirilib. Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, abidənin önünə gül dəstələri düzülüb.***




Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP Cəlilabad rayon təşkilatının sədri Mirsüleyman Mirxaslı hesabat məruzəsi ilə çıxış edib. O, rayon təşkilatı tərəfindən Ümummilli Lider Heydər Əliyevin irsinin geniş təbliği istiqamətində görülən işlərin əhəmiyyətindən danışıb. Qeyd olunub ki, Prezident, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən islahatlar nəticəsində bütün sahələrdə sürətli inkişafa nail olunub, ölkəmizdə ictimai-siyasi sabitlik və əmin-amanlıq təmin edilib, dövlətimizin beynəlxalq nüfuzu artıb.



Cəlilabad Rayon İcra Hakimiyyətinin başçısı Rafiq Cəlilov bildirib ki, Yeni Azərbaycan Partiyasının fəaliyyəti mühüm uğurlarla səciyyələnir. O qeyd edib ki, Prezident, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin ərazi bütövlüyü və suverenliyinin təmin olunması Azərbaycanın dövlətçilik tarixində əldə etdiyi ən möhtəşəm uğurlardan biridir. R.Cəlilov YAP Cəlilabad rayon təşkilatının fəaliyyətinin səmərəli şəkildə qurulduğunu vurğulayıb.

YAP Təftiş komissiyasının üzvü, Milli Məclisin deputatı Elman Nəsirov çıxış edərək Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, xalqımızın birlik və həmrəyliyi, Silahlı Qüvvələrimizin rəşadəti sayəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyinin bərpa olunmasının regionda yeni reallıqlar yaratdığını, həmçinin Azərbaycanın qlobal arenada cərəyan edən siyasi və iqtisadi proseslərdə fəal aktorlardan birinə çevrildiyini vurğulayıb. O, tarixi Zəfərin xalqımızın yaddaşında əbədi yaşayacağını və gələcək nəsillər üçün qürur mənbəyi olacağını diqqətə çatdırıb.

Milli Məclisin deputatı Malik Həsənov çıxışında Yeni Azərbaycan Partiyasının ölkənin ictimai-siyasi həyatında fəal rolundan bəhs edib. O, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasətin Azərbaycanın sosial-iqtisadi inkişafına, beynəlxalq mövqelərinin möhkəmlənməsinə və qarşıya qoyulan strateji hədəflərin reallaşdırılmasına xidmət etdiyini bildirib. Malik Həsənov qeyd edib ki, əldə olunan uğurlar xalqın dövlət siyasətinə və Yeni Azərbaycan Partiyasına olan etimadını bir daha nümayiş etdirir.

Partiya fəalları Gülər İsgəndərova və Aytac Məmmədli, Moranlı kənd tam orta məktəbinin direktoru Ruslan Abasov ölkəmizdə gənclərə göstərilən dövlət qayğısından, həmçinin təhsil sahəsində həyata keçirilən genişmiqyaslı islahatlardan söz açıblar.

Çıxış edən YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Əli Axundov Yeni Azərbaycan Partiyasının ölkəmizin ictimai-siyasi həyatında aparıcı mövqeyindən söz açıb. O, partiyanın ötən dövr ərzində xalqın inam və etimadını layiqincə doğrultduğunu vurğulayıb.

Konfransda YAP Cəlilabad rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib. Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# Tarixi Zəfərin reallıqlarını yaşayırıq

**Sentyabrın 11-də Yeni Azərbaycan Partiyası (YAP) Şərur rayon təşkilatının XIII konfransı keçirilib. Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, abidənin önünə gül dəstələri düzülüb.**




Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

YAP Şərur rayon təşkilatının sədri Əmir Babayev hesabat məruzəsi ilə çıxış edib. O qeyd edib ki, hesabat dövründə təşkilat tərəfindən partiyanın fəaliyyət istiqamətlərinə uyğun olaraq bir sıra tədbirlər keçirilib. Bildirilib ki, üzvlərin ictimai-siyasi fəallığının artırılması, partiya sıralarının genişləndirilməsi və ərazi partiya təşkilatlarının fəaliyyətinin əlaqələndirilməsi diqqət mərkəzində saxlanılıb.

Şərur Rayon İcra Hakimiyyətinin başçısı Kamal Cəfərov Yeni Azərbaycan Partiyasının ölkənin ictimai-siyasi həyatında aparıcı mövqeyindən danışıb. O, Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kursun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulayıb.





Milli Məclis sədrinin müavini Ziyafət Əsgərov Azərbaycanın dövlətçilik tarixində Heydər Əliyev siyasətinin rolundan, Prezident İlham Əliyevin rəhbərliyi ilə əldə olunan tarixi nailiyyətlərdən bəhs edib. O, Yeni Azərbaycan Partiyasının bu siyasətin həyata keçirilməsində mühüm siyasi platforma olduğunu qeyd edib.

Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov çıxışında regionların sosial-iqtisadi inkişafı, yerli idarəetmənin daha da təkmilləşdirilməsi və əhalinin rifahının yüksəldilməsi istiqamətində həyata keçirilən tədbirlərdən danışıb. O, partiya təşkilatlarının bu proseslərdə fəal iştirakının vacibliyini vurğulayıb.

Çıxış edən YAP Şərur rayon təşkilatının sədr müavini Adil Əhmədov təşkilatın hesabat dövründə gördüyü işlərdən, partiya üzvlərinin fəallığının artırılması istiqamətində həyata keçirilən tədbirlərdən bəhs edib.

Həmzəli kənd ərazi partiya təşkilatının sədri Məhsəti Rzayeva ərazi partiya təşkilatlarının fəaliyyətinin uğurlu dövlət siyasətinin təbliğində rolundan danışıb.

YAP Mərkəzi Aparatının Siyasi təhlil, maarifləndirmə və seçkilərlə iş şöbəsinin müdir müavini Asif İmaməliyev partiyanın 2021-ci il martın 5-də keçirilən VII qurultayından sonra müəyyənləşdirilən prioritetlər və qarşıda duran vəzifələrdən bəhs edib. O, siyasi maarifləndirmənin partiya fəaliyyətində mühüm istiqamətlərdən biri olduğunu vurğulayaraq, bu sahədə aparılan işlərin əhəmiyyətini diqqətə çatdırıb. Konfransda YAP Şərur rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib. Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# Uzaqgörən və məqsədyönlü siyasi strategiya

**Sentyabrın 11-də Yeni Azərbaycan Partiyası (YAP) Göyçay rayon təşkilatının X konfransı keçirilib. Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, abidənin önünə gül dəstələri düzülüb.**

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

YAP Göyçay rayon təşkilatının sədri Sahib Şükürov hesabat məruzəsi ilə çıxış edib. Qeyd olunub ki, təşkilat hesabat dövründə fəaliyyətini qarşıya qoyulmuş vəzifələrə uyğun qurub, rayonun ictimai-siyasi həyatında fəal iştirak edib. Vurğulanıb ki, partiya üzvlərinin ictimai fəallığının artırılması və ideoloji prinsiplərin təbliği istiqamətində ardıcıl iş aparılıb.







Göyçay Rayon İcra Hakimiyyətinin başçısı Orxan Mürsəlov çıxışında Yeni Azərbaycan Partiyasının ölkənin ictimai-siyasi həyatında aparıcı rolundan danışıb, partiyanın cəmiyyətin müxtəlif təbəqələrini vahid məqsədlər ətrafında birləşdirən siyasi qüvvə olduğunu vurğulayıb. O, həmçinin Prezident, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin bütün bölgələrində, o cümlədən Göyçay rayonunda həyata keçirilən abadlıq-quruculuq işlərindən danışıb.

YAP Veteranlar Şurasının üzvü Nazim İsmayılov partiyanın keçdiyi şərəfli yol, veteranların ictimai-siyasi proseslərdə rolu və gənc nəslin dövlətçilik ənənələrinə bağlı ruhda formalaşmasının əhəmiyyəti barədə fikirlərini bölüşüb.

Partiya fəalı, Göyçay şəhər 4 saylı tam orta məktəbin müəllimi Firəngiz Məmmədyarova, Göyçay Dövlət İdarəetmə və Texnologiya Kolleci ərazi partiya təşkilatının sədri Səbinə Qurbanova və Qaraməryəm kənd bələdiyyəsinin sədri Süleyman Səfərov partiyanın fəaliyyətinin müxtəlif istiqamətlərinə toxunaraq, ərazi partiya təşkilatlarının işinin səmərəli qurulması, üzvlərin ictimai fəallığının artırılmasının əhəmiyyətini diqqətə çatdırıblar.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Fəsli Nəbiyev partiyanın 2021-ci il martın 5-də keçirilən VII qurultayından sonra qarşıya qoyulan vəzifələrdən, əsas fəaliyyət istiqamətlərindən və ərazi partiya təşkilatlarının rolunun artırılmasının əhəmiyyətindən bəhs edib.

Konfransda YAP Göyçay rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib.

Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.








# Davamlı tərəqqi, tarixi nailiyyətlər və yeni hədəflər

**Sentyabrın 11-də Yeni Azərbaycan Partiyası (YAP) Qazax rayon təşkilatının XI konfransı keçirilib. Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, abidənin önünə gül dəstələri düzülüb. Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.**

Konfransda YAP Qazax rayon təşkilatının sədri Anar Nəbiyev hesabat məruzəsi ilə çıxış edib. O bildirib ki, Azərbaycanın ən mütəşəkkil və güclü siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasının ölkəmizin müstəqillik tarixində müstəsna rolu var. A.Nəbiyev hesabat dövründə Ümummilli Lider Heydər Əliyevin zəngin irsi və misilsiz xidmətləri, Prezident İlham Əliyevin uğurlu siyasətinin təbliği istiqamətində keçirilən tədbirlərin əhəmiyyətindən söz açıb.

Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov çıxışında Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kursun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulayıb. O qeyd edib ki, həyata keçirilən məqsədyönlü siyasət nəticəsində Azərbaycan ərazi bütövlüyünü və suverenliyini bərpa edərək dövlətçilik tarixinin ən mühüm nailiyyətlərindən birinə imza atıb. İcra başçısı, həmçinin vurğulayıb ki, Yeni Azərbaycan Partiyasının fəaliyyəti cəmiyyət tərəfindən birmənalı şəkildə dəstəklənir.

Çıxış edən YAP Təftiş komissiyasının üzvü, Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov bildirib ki, Yeni Azərbaycan Partiyası ölkəmizin ictimai-siyasi həyatında əhəmiyyətli yer tutur. Onun sözlərinə görə, Ümummilli Lider Heydər Əliyevin uzaqgörən siyasəti Prezident, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir: "Müstəqil, suveren Azərbaycan yeni dünya nizamının qurulmasında söz sahibinə çevrilib".

Çıxış edən partiya veteranı Abbas Göyüşov YAP Qazax rayon təşkilatının fəaliyyətindən bəhs edərək, təşkilatın partiyanın ideoloji prinsiplərinin təbliği və üzvlərin ictimai fəallığının artırılması istiqamətində gördüyü işlərə toxunub.

Partiya veteranları Gülnaz Alişanova və Kazım Kazımlı, partiya fəalı Nicat Göşşüyev, Qazax Dövlət Sosial İqtisadi Kolleci ərazi partiya təşkilatının sədri Esmira Şıxməmmədova hesabat dövründə partiya üzvlərinin rayonun ictimai-siyasi həyatında, o cümlədən humanitar aksiyalarda fəal iştirakından söz açıblar. Natiqlər bundan sonra da rayon təşkilatının uğurları naminə yüksək siyasi fəallıq göstərəcəklərini diqqətə çatdırıblar.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Araz Salmanov qeyd edib ki, 1992-ci il noyabrın 21-də yaradılan Yeni Azərbaycan Partiyası qısa bir müddətdə milyonların sevgisini qazanaraq ümumxalq partiyasına çevrilib. A.Salmanov YAP-ın keçdiyi şərəfli yoldan, partiyanın VII qurultayından sonra aparılan islahatlardan, həyata keçirilən məqsədyönlü tədbirlərdən, əldə olunan nailiyyətlərdən və qarşıda duran vəzifələrdən ətraflı bəhs edib.

Konfransda YAP Qazax rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib. Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# Ölkəmiz tərəqqi yolunda inamla irəliləyir








***Sentyabrın 11-də Yeni Azərbaycan Partiyası (YAP) Füzuli rayon təşkilatının XII konfransı keçirilib. Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, abidənin önünə gül dəstələri düzülüb.***

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

YAP Füzuli rayon təşkilatının sədri Nazimə Şamıyeva hesabat məruzəsi ilə çıxış edib. Qeyd olunub ki, təşkilat hesabat dövründə fəaliyyətini partiyanın qarşıya qoyduğu vəzifələrə uyğun qurub, rayon ərazisində partiya üzvlərinin ictimai-siyasi fəallığının artırılması, ideoloji prinsiplərin təbliği, qadın və gənclərin ictimai-siyasi proseslərdə iştirakının genişləndirilməsi istiqamətində ardıcıl iş aparıb.

Füzuli Rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyev çıxışında Yeni Azərbaycan Partiyasının ölkənin ictimai-siyasi həyatında aparıcı rolundan danışıb. O, Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kursun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini, Azərbaycanın möhtəşəm nailiyyətlər qazandığını bildirib.

YAP İdarə heyətinin üzvü, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova Yeni Azərbaycan Partiyasının cəmiyyətdə fəal mövqeyindən, qadınların ictimai-siyasi proseslərdə iştirakının genişləndirilməsi istiqamətində görülən işlərdən bəhs edib. O, partiyanın VII qurultayından sonra fəaliyyətini daha səmərəli qurulması istiqamətində ardıcıl tədbirlərin həyata keçirildiyini vurğulayıb.

Şəhid anası Səridə Zalova, Füzuli Dövlət Dram Teatrı ərazi partiya təşkilatının sədri Azər Abbasov və Böyük Bəhmənli kənd 1 nömrəli tam orta məktəbin direktoru Solmaz Qənimətli şəhid ailələri və qazilərə göstərilən dövlət qayğısından, partiya təşkilatlarının yerli səviyyədə fəaliyyətindən və ictimai təşəbbüslərdə fəal iştirakın önəmindən danışıblar.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Rəşad Abbaszadə hesabat dövründə YAP Füzuli rayon təşkilatının ərazi partiya təşkilatlarının fəaliyyətinin daha da gücləndirildiyini, o cümlədən partiya üzvlərinin ictimai-siyasi fəallığının artırılması istiqamətində görülən işlərin əhəmiyyətini vurğulayıb.

Konfransda YAP Füzuli rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib. Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.




# Rifah, inkişaf və qələbələr





***Sentyabrın 11-də Yeni Azərbaycan Partiyası (YAP) Ağstafa rayon təşkilatının X konfransı keçirilib. Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, abidənin önünə gül dəstələri düzülüb.***

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP Ağstafa rayon təşkilatının sədri Etibar Hacıyev hesabat məruzəsi ilə çıxış edib. Qeyd olunub ki, YAP Ağstafa rayon təşkilatı hesabat dövründə rayonun ictimai-siyasi həyatında fəal iştirak edib, qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi istiqamətində məqsədyönlü fəaliyyət göstərib. Partiya üzvlərinin ictimai-siyasi fəallığının artırılması, ideoloji işin gücləndirilməsi diqqət mərkəzində saxlanılıb.

Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı Seymur Orucov çıxışında Ulu Öndər Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyasının ölkəmizin ictimai-siyasi həyatında aparıcı və alternativsiz siyasi qüvvə kimi mühüm rol oynadığını bildirib. Onun sözlərinə görə, Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyasının Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində Azərbaycan hərbi-siyasi və sosial-iqtisadi inkişaf baxımından mühüm nailiyyətlər əldə edib.

YAP İdarə Heyətinin üzvü Bayram Aslanov çıxışında Yeni Azərbaycan Partiyasının VII qurultayından sonra partiyanın fəaliyyətinin müasir çağırışlara uyğun qurulduğunu bildirib. O, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpa olunmasını tarixi nailiyyət kimi qiymətləndirib, əldə edilən şanlı zəfərlərin regionda yeni reallıqlar yaratdığını vurğulayıb.

Tədbirdə partiya veteranı, Ağstafa Rayon Ağsaqqallar Şurasının sədri Sənan Mustafayev, "Mərkəzi Xəstəxana" ərazi partiya təşkilatının sədr müavini Həcər Namazova, partiya fəalları Solmaz Nağıyeva və Şəfəq Heydərli Yeni Azərbaycan Partiyasının keçdiyi şərəfli yoldan və hesabat dövründə rayon təşkilatının fəaliyyətindən söz açıblar.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Araz Salmanov Yeni Azərbaycan Partiyasının ölkənin ictimai-siyasi həyatında fəal rolundan, VII qurultaydan sonra təşkilati fəaliyyətin daha da təkmilləşdirilməsindən bəhs edib. O, YAP Ağstafa rayon təşkilatının hesabat dövründə gördüyü işləri müsbət qiymətləndirərək gələcək fəaliyyətində uğurlar arzulayıb.

Konfransda YAP Ağstafa rayon təşkilatının hesabat dövründəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib. Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# YAP Sədərək rayon təşkilatının XIII konfransı keçirilib

Sentyabrın 11-də Yeni Azərbaycan Partiyası (YAP) Sədərək rayon təşkilatının XIII konfransı keçirilib. Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, abidənin önünə gül dəstələri düzülüb. Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP Sədərək rayon təşkilatının sədri Vüsalə Əliyeva hesabat məruzəsi ilə çıxış edib. Qeyd olunub ki, Yeni Azərbaycan Partiyası nüfuzlu siyasi təşkilat olaraq ölkənin ictimai-siyasi həyatında mühüm rol oynayıb. 1992-ci il noyabrın 21-də təsis edilən partiya hər zaman milli maraqları ön planda tutub, demokratik ənənələrin inkişafına böyük töhfələr verib.

Sədərək Rayon İcra Hakimiyyəti başçısının səlahiyyətlərini icra edən Yusif Seyidov bildirib ki, Yeni Azərbaycan Partiyası ölkəmizdə dövlətçilik ənənələrinin inkişafı istiqamətində şərəfli bir missiya yerinə yetirib. Vurğulanıb ki, YAP xalqın dəstəyinə arxalanır və Ulu Öndər Heydər Əliyevin siyasi irsini davam etdirir. O, həmçinin rayonun sosial-iqtisadi inkişafı, əhalinin rifahının yüksəldilməsi və ictimai fəallığın artırılması istiqamətində görülən işlərdən bəhs edib.




Milli Məclis sədrinin müavini Ziyafət Əsgərov Ulu Öndər Heydər Əliyevin dövlətçilik irsindən və Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın qazandığı tarixi nailiyyətlərdən söz açıb. O, ərazi bütövlüyünün və suverenliyin bərpasını dövlətçilik tariximizin ən möhtəşəm uğurlarından biri kimi dəyərləndirib.



Çıxış edən partiya veteranı Arif Qasımov, Sədərək Rayon Təhsil Şöbəsinin müdiri Sirac Qarayev Yeni Azərbaycan Partiyasın xalqı vahid siyasi ideya ətrafında birləşdirdiyini və veteranların təcrübəsinin gənc üzvlərin fəaliyyətində mühüm əhəmiyyət daşıdığını qeyd ediblər.

YAP Mərkəzi Aparatının Siyasi təhlil, maarifləndirmə və seçkilərlə iş şöbəsinin müdir müavini Asif İmaməliyev Yeni Azərbaycan Partiyasının VII qurultayından sonra fəaliyyətin yeni tələblər əsasında qurulması, siyasi maarifləndirmə işinin genişləndirilməsi və qarşıya qoyulan vəzifələrin icrası istiqamətində görülən işlərdən danışıb. Konfransda YAP Sədərək rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib. Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.




# YAP özünü qələbələr partiyası kimi təsdiqləyib



Sentyabrın 12-də Yeni Azərbaycan Partiyası (YAP) Qubadlı rayon təşkilatının X konfransı keçirilib. Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin büstü önünə gül dəstələri düzülərək xatirəsi ehtiramla yad olunub.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP Qubadlı rayon təşkilatının sədri Təhmasib Rüstəmov hesabat məruzəsi ilə çıxış edib. O, qarşıya qoyulan vəzifələrin icrası məqsədilə görülmüş işlər barədə məlumat verib. Bildirilib ki, Yeni Azərbaycan Partiyası bütün mərhələlərdə uğurla fəaliyyət göstərib, özünü qələbələr partiyası kimi təsdiqləyib.

Qubadlı Rayon İcra Hakimiyyətinin başçısı Malik İsaqov bildirib ki, ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin bərpa olunması tariximizin ən şanlı səhifəsidir. Onun sözlərinə görə, ölkəmizin bütün bölgələrində olduğu kimi, Qubadlı rayonunda da genişmiqyaslı bərpa və quruculuq işləri həyata keçirilir. Vurğulanıb ki, Azərbaycanın qazandığı möhtəşəm qələbələr nəticəsində uzun illər yurd həsrəti ilə yaşayan qubadlılılar da doğma torpaqlarına qovuşacaqlar.

Milli Məclisin deputatı Ceyhun Məmmədov çıxışında bildirib ki, YAP tarixi zərurətdən yaranan siyasi partiya olaraq qarşıya qoyduğu missiyanı şərəflə yetirib. Onun sözlərinə görə, bu missiyaya müstəqil dövlət quruculuğu, demokratik ənənələrin inkişafı və digər məsələlər daxil idi: "Ulu Öndər Heydər Əliyevin qurub yaratdığı müasir müstəqil Azərbaycanı Prezident, Ali Baş Komandan İlham Əliyev qalib dövlətə çevirib".

Çıxış edən 3-cü mikrorayon ünvanı üzrə ərazi partiya təşkilatının sədri Rəhminə Mehtiyeva və Vətən müharibəsi qazisi Sənan Həsənov hesabat məruzəsi ilə bağlı fikirlərini bildiriblər. YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Rəşad Abbaszadə rayon təşkilatının müasir çağırışlara uyğun olaraq fəaliyyət göstərdiyini bildirməklə yanaşı, qarşıda duran vəzifələrdən də ətraflı bəhs edib. Konfransda YAP Qubadlı rayon təşkilatının hesabat dövründəki fəaliyyəti qənaətbəxş hesab edilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib. Tədbirin sonunda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# YAP beynəlxalq aləmdə də nüfuzlu siyasi təşkilat kimi qəbul olunur




Sentyabrın 12-də Yeni Azərbaycan Partiyası (YAP) Ucar rayon təşkilatının X konfransı keçirilib. Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, abidənin önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.



Konfransda YAP Ucar rayon təşkilatının sədri Şəhla Abdullayeva hesabat məruzəsi ilə çıxış edib. O bildirib ki, dövlətçilik tariximizin misilsiz inkişaf mərhələsi Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Təşkilat sədri deyib ki, Müstəsna xidmətləri ilə öz adını Azərbaycan tarixinə əbədi həkk etdirmiş bu müdrik şəxsiyyətin ölkəmizə rəhbərlik etdiyi illər intibah, tərəqqi və milli oyanış dövrü kimi səciyyələnir".

YAP Ucar rayon təşkilatının hesabat dövründə sıralarını genişləndirdiyini vurğulayan Ş.Abdullayeva qeyd edib ki, təşkilat bundan sonra da üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışacaqdır. Ucar Rayon İcra Hakimiyyətinin başçısı Mənsur Məmmədov diqqətə çatdırıb ki, Prezident, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan tarixi nailiyyətlər əldə edib: "Belə ki, ölkəmizdə iqtisadiyyat sürətlə inkişaf edib, işsizlik və yoxsulluq minimum həddə endirilib, əmək haqları, pensiya və sosial müavinətlər dəfələrlə artırılıb. Hazırda Azərbaycan regionun lider ölkəsi olmaqla, dünya arenasında müstəqil siyasət yürüdən etibarlı tərəfdaş kimi qəbul edilir".

Yeni Azərbaycan Partiyasının Veteranlar Şurasının üzvü Nazim İsmayılov qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın əldə etdiyi möhtəşəm uğurların zirvəsində 2020-ci ilin 44 günlük Vətən müharibəsi və 2023-cü ildə həyata keçirilən bir günlük lokal xarakterli antiterror əməliyyatı nəticəsində qazanılan parlaq qələbələr dayanır. O, "Azərbaycan artıq qlobal arenada ərazi bütövlüyünü və suverenliyini öz gücü ilə bərpa edən bir ölkə kimi tanınır", - deyə vurğulayıb. Sonra Ucar Rayon Ağsaqqallar Şurasının sədri Mirzalı Ağamalıyev, Mərkəzi Aran Regional Mədəniyyət İdarəsinin Ucar rayonu üzrə nümayəndəliyi ərazi partiya təşkilatının sədr müavini Mətanət Qəribova, təhsil sektoru ərazi partiya təşkilatının sədri Anar Misirov, Ucar Rayon Mərkəzi Xəstəxanası ərazi partiya təşkilatının sədri Şəhla İbrahimova və Şahlıq kənd ərazi partiya təşkilatının sədri Rahib Şərifov çıxış ediblər.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Fəsli Nəbiyev qeyd edib ki, Azərbaycan bütün sahələrdə misilsiz inkişaf mərhələsinə qədəm qoyub. Onun sözlərinə görə, YAP zəfərlər partiyası kimi iştirak etdiyi bütün seçkilərdə inamlı qələbə qazanıb: "Yeni Azərbaycan Partiyası beynəlxalq aləmdə də nüfuzlu siyasi təşkilat kimi qəbul olunur, dünyanın aparıcı partiyaları ilə əməkdaşlıq edir və ölkənin strateji maraqlarının qorunmasına töhfə verir".

Konfransda YAP Ucar rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib. Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# YAP ölkənin ictimai-siyasi həyatında əvəzsiz rol oynayır






Sentyabrın 12-də Yeni Azərbaycan Partiyası (YAP) Binəqədi rayon təşkilatının XI konfransı keçirilib. Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, abidənin önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda hesabat məruzəsi ilə çıxış edən YAP Binəqədi rayon təşkilatının sədri Vüsar İsmayılov bildirib ki, 21 noyabr 1992-ci il tarixində Yeni Azərbaycan Partiyasının yaranması müstəqil Azərbaycan tarixinin ən mütərəqqi siyasi hadisələrindən biri kimi səciyyələnir. Onun sözlərinə görə, Ulu Öndərin siyasi hakimiyyətə qayıdışı ilə Azərbaycan parçalanmaq və məhv olmaq təhlükəsindən xilas olub, ölkəmiz bütün sahələrdə ciddi uğurlara imza atıb. Hesabat dövründə YAP Binəqədi rayon təşkilatının fəaliyyəti, ərazi partiya təşkilatları ilə effektiv koordinasiya və xüsusilə gənclərlə qadınların ictimai fəallığının artırılması yönündə görülən işlər barədə məlumat verən sədr, həmçinin qarşıda duran hədəflərdən də danışıb.

Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Elxan Allahverdiyev çıxış edərək bildirib ki, Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kurs Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Vurğulanıb ki, qüdrətli Azərbaycan qətiyyətli mövqeyi sayəsində dünyada söz sahibi olan nüfuzlu dövlətlərdən birinə çevrilib. O, bu istiqamətdə partiyanın fəaliyyətinin də mühüm əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb.

Milli Məclisin deputatı Səbinə Xasayeva çıxışında Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən və bütün sahələrdə davamlı inkişafı hədəfləyən uğurlu islahatlardan bəhs edib. O, dövlət siyasətinin sosial rifahın yüksəldilməsinə, iqtisadi imkanların genişləndirilməsinə və Azərbaycanın beynəlxalq mövqelərinin daha da möhkəmləndirilməsinə xidmət etdiyini vurğulayıb.

Milli Məclisin deputatı Kamaləddin Qafarov bildirib ki, Yeni Azərbaycan Partiyası regionun aparıcı siyasi qüvvəsi olaraq ölkəmizin ictimai-siyasi həyatında əvəzsiz rol oynayır. Onun sözlərinə görə, partiyanın milli maraqlarımıza xidmət edən uğurlu fəaliyyəti xalq-iqtidar birliyinin təmin olunmasında mühüm önəm kəsb edir.

Çıxış edən Bakı Dövlət Universitetinin Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasınınm müdiri Hüseyn Əsgərov və partiya fəalı Yusif Tarverdiyev rayon təşkilatının fəaliyyətinə münasibət bildiriblər.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin müdir müavini Rafael Gülməmmədov Yeni Azərbaycan Partiyasının ümummilli mənafeləri rəhbər tutaraq ölkədə ictimai-siyasi sabitliyin təminatçısı və dayanıqlı inkişafın aparıcı qüvvəsi kimi çıxış etdiyini vurğulayıb. Konfransda YAP Binəqədi rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib. Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.




# Qətiyyətli addımlar, parlaq gələcək



Sentyabrın 12-də Yeni Azərbaycan Partiyası (YAP) Tovuz rayon təşkilatının XI konfransı keçirilib. Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, abidənin önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP Tovuz rayon təşkilatının sədri Nihad Pənahov hesabat məruzəsi ilə çıxış edib. O bildirib ki, Prezident, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində Azərbaycan mühüm tarixi nailiyyətlər qazanıb. Qeyd olunub ki, 2020-ci ilin 44 günlük Vətən müharibəsində və 2023-cü ildə keçirilən birgünlük lokal xarakterli antiterror tədbirlərində əldə olunan şanlı qələbələr nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyinin tam bərpa edilməsi dövlətçilik tariximizin ən mühüm hadisələrindən biridir.

Təşkilat sədri vurğulayıb ki, hesabat dövründə rayon təşkilatı partiyanın ideya və prinsiplərinin təbliği, ərazi partiya təşkilatlarının fəaliyyətinin gücləndirilməsi, partiya üzvləri ilə əlaqələrin genişləndirilməsi, gənclərin və qadınların ictimai-siyasi fəallığının artırılması istiqamətində ardıcıl iş aparıb.

Tovuz Rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədov bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə regionların inkişaf proqramının uğurla reallaşdırılması bölgələrin hərtərəfli inkişafını təmin edib. O, Yeni Azərbaycan Partiyasının ölkəmizin ictimai-siyasi həyatında aparıcı qüvvə olduğunu, YAP Tovuz rayon təşkilatının da hesabat dövründə rayonun ictimai-siyasi həyatında fəal iştirak etdiyini və qarşıya qoyulan vəzifələrin icrasına öz töhfəsini verdiyini qeyd edib.

YAP Təftiş Komissiyasının sədr müavini, Milli Məclisin deputatı Nizami Səfərov Yeni Azərbaycan Partiyasının keçdiyi şərəfli yoldan, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin qazandığı tarixi nailiyyətlərdən bəhs edib. O, rayon təşkilatının hesabat dövründə fəaliyyətini müsbət qiymətləndirib və gələcək fəaliyyətində uğurlar arzulayıb.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Araz Salmanov qeyd edib ki, Yeni Azərbaycan Partiyasının Tovuz rayon təşkilatı qarşıya qoyulan vəzifələrin səmərəli icrası istiqamətində məqsədyönlü iş aparır.

Tədbirdə, həmçinin "Fariz Ələkbərov küçəsi" ərazi partiya təşkilatının sədri Aysel Quliyeva, Hacıalılı kənd ərazi partiya təşkilatının sədri Sahib Quliyev, Vətən müharibəsi iştirakçısı Eyvaz Süleymanov və Tovuz Dövlət Sosial-İqtisadi Kollecinin direktor müavini Lamiyə Namazova çıxış ediblər. Konfransda YAP Tovuz rayon təşkilatının hesabat dövründəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib. Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# Yeni reallıqlar yeni imkanlar yaradır





Sentyabrın 12-də Yeni Azərbaycan Partiyası (YAP) Zəngilan rayon təşkilatının XI konfransı keçirilib. Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin büstü önünə gül dəstələri düzülüb, xatirəsi ehtiramla yad edilib.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü, suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP Zəngilan rayon təşkilatının sədri Natiq Quluzadə hesabat məruzəsi ilə çıxış edib. O bildirib ki, Ulu Öndər Heydər Əliyevin ideyaları əsasında fəaliyyət göstərən Yeni Azərbaycan Partiyası Azərbaycanın mütərəqqi inkişafının avanqard qüvvəsinə çevrilib. Onun sözlərinə görə, YAP Zəngilan rayon təşkilatı hesabat dövründə öz ideoloji-siyasi fəaliyyətini, o cümlədən ərazi partiya təşkilatları ilə əlaqələri genişləndirib və əhalinin müxtəlif təbəqələrini əhatə edən silsilə tədbirlər həyata keçirib.

Zəngilan Rayon İcra Hakimiyyətinin başçısı Ramiz Həsənov vurğulayıb ki, Prezident İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycan dinamik inkişaf edən, beynəlxalq mövqelərini davamlı şəkildə möhkəmləndirən dövlətə çevrilib. Onun sözlərinə görə, Azərbaycanın qazandığı şanlı Zəfərlər nəticəsində ölkəmizin ərazi bütövlüyü və dövlət suverenliyi tam bərpa olunub. Bildirilib ki, azad edilmiş ərazilərdə Böyük Qayıdış Proqramı çərçivəsində genişmiqyaslı quruculuq işləri həyata keçirilir, Zəngilan rayonunda da yeni yaşayış məntəqələri salınır, müasir infrastruktur yaradılır və əhalinin doğma yurda qayıdışı təmin olunur.

Milli Məclisin deputatı İmamverdi İsmayılov isə YAP-ın xalqın inam və etimad ünvanı kimi formalaşdığını diqqətə çatdırıb. O bildirib ki, 44 günlük Vətən müharibəsində və 2023-cü ilin antiterror tədbirlərində əldə olunan möhtəşəm qələbələr dövlətimizin qüdrətini bütün dünyaya nümayiş etdirib. "Azərbaycan xalqı məhz öz Liderinin ətrafında dəmir yumruq kimi birləşərək milli birlik və həmrəylik nümayiş etdirir", - deyə deputat vurğulayıb.

Çıxış edən partiya veteranları Almas Osmanova və Söhbət Musayev, həmçinin "Nərimanov rayonu, Ələsgər Qayıbov küçəsi" ərazi partiya təşkilatının sədri Kənan İmaməliyev Azərbaycanın yeni hədəfləri uğurla reallaşdıracağına əminliklərini ifadə ediblər.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Rəşad Abbaszadə isə Cənubi Qafqaz regionunda yeni reallıqların yarandığını, partiya üzvlərinin bu prosesləri diqqətlə izləyərək üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirməli olduqlarını diqqətə çatdırıb.

Konfransda YAP Zəngilan rayon təşkilatının hesabat dövründəki fəaliyyəti qənaətbəxş hesab edilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib. Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# Tarixi nailiyyətlərdən yeni hədəflərə doğru




Sentyabrın 14-də Yeni Azərbaycan Partiyası (YAP) Masallı rayon təşkilatının XI konfransı keçirilib. Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, abidənin önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev hesabat məruzəsi ilə çıxış edib. O, ötən dövr ərzində təşkilat tərəfindən həyata keçirilən işlər, rayonda reallaşdırılan ictimai-siyasi tədbirlər və partiya üzvlərinin ictimai proseslərdə fəal iştirakı barədə məlumat verib. Bildirilib ki, təşkilatın fəaliyyəti partiyanın qarşıya qoyduğu məqsəd və vəzifələrə uyğun olaraq davam etdirilib. Rayon təşkilatının ötən müddət ərzində sıralarını genişləndirdiyini deyən S.Əliyev qeyd edib ki, əldə olunan nailiyyətlərlə yanaşı, növbəti mərhələdə də qarşıda məsuliyyətli vəzifələr dayanır.

Masallı Rayon İcra Hakimiyyətinin başçısı Araz Əhmədov Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə həyata keçirilən ardıcıl və məqsədyönlü siyasət, sosial-iqtisadi inkişaf, genişmiqyaslı islahatlar və reallaşdırılan sosial layihələr barədə danışıb. O bildirib ki, son illər görülən işlər ölkənin hərtərəfli inkişafına, əhalinin sosial rifahının yüksəldilməsinə və regionların inkişafına mühüm töhfə verib. Milli Məclisin deputatı Məşhur Məmmədov Ulu Öndər Heydər Əliyevin fikirlərinə istinad edərək, Yeni Azərbaycan Partiyasının dünənin, bu günün və gələcəyin partiyası olaraq fəaliyyət göstərdiyini deyib. Onun sözlərinə görə, torpaqlarımızın işğaldan azad olunması və Azərbaycanın ərazi bütövlüyünün, eləcə də suverenliyinin tam bərpa edilməsi partiyanın uğurlu siyasi fəaliyyətinin əsas nəticəsidir.



Daha sonra Rafiq Əlihəsənov adına 1 saylı tam orta məktəb ərazi partiya təşkilatının sədri, şəhid anası Mehriban Sultanova, Masallı Dövlət Aqrar İnkişaf Mərkəzi ərazi partiya təşkilatının sədri Seymur Nuriyev, Masallı rayon Heydər Əliyev Mərkəzinin direktoru Dilbər İbayeva, Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyi Masallı filialının sədri Nahid Rəhimov, Mahmudavar ərazi partiya təşkilatının sədri Kinəxanım Əliyeva çıxış edərək Azərbaycanın müstəqillik dövründə qazandığı bütün nailiyyətlərdə YAP-ın imzasının olduğunu deyiblər.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Əli Axundov bildirib ki, Yeni Azərbaycan Partiyası bütün dövrlərdə xalqın iradəsini və dövlətçilik maraqlarını əsas götürüb. O qeyd edib ki, partiyanın ardıcıl və məqsədyönlü fəaliyyəti onun cəmiyyət arasında nüfuzunun daha da möhkəmlənməsinə, xalqın YAP-a olan inamının davamlı şəkildə artmasına səbəb olub.

Konfransda YAP Masallı rayon təşkilatının hesabat dövründəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII Qurultayına nümayəndələr seçilib. Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.



# YAP Ağdam rayon təşkilatının XII konfransı keçirilib

Sentyabrın 14-də Yeni Azərbaycan Partiyası (YAP) Ağdam rayon təşkilatının XII konfransı keçirilib. Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, abidənin önünə gül dəstələri düzülüb.



Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP Ağdam rayon təşkilatının sədri Mansur Quliyev hesabat məruzəsi ilə çıxış edib. Qeyd olunub ki, YAP Ağdam rayon təşkilatı ötən müddət ərzində qarşıya qoyulan vəzifələrin icrası istiqamətində fəaliyyətini ardıcıl olaraq davam etdirib. Yeni Azərbaycan Partiyasının 2021-ci il martın 5-də keçirilən VII qurultayından sonra partiyanın təşkilati strukturunun təkmilləşdirilməsi, ərazi partiya təşkilatlarının fəaliyyətinin səmərəli təşkili, üzvlərlə işin keyfiyyətinin artırılması və müasir çağırışlara uyğun fəaliyyət mexanizmlərinin formalaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilib. Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov çıxışında rayonda həyata keçirilən genişmiqyaslı sosial-iqtisadi layihələr, əhalinin sosial rifahının yüksəldilməsi və yaşayış şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlər barədə danışıb. O vurğulayıb ki, ölkəmiz Prezident İlham Əliyevin rəhbərliyi ilə tərəqqi və Zəfər yolunda inamla irəliləyir, həyata keçirilən ardıcıl və məqsədyönlü dövlət siyasəti regionların hərtərəfli inkişafı üçün geniş imkanlar yaradır.

YAP Veteranlar Şurasının üzvü, Milli Məclisin deputatı Elman Məmmədov Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan Yeni Azərbaycan Partiyasının hər zaman xalqa xidmət prinsipini prioritet saydığını vurğulayıb. O, partiyanın Azərbaycanın davamlı inkişafının təmin edilməsində və dövlətçilik ənənələrinin möhkəmləndirilməsində roluna diqqət çəkib. Qeyd olunub ki, Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz misilsiz nailiyyətlərə imza atır. 9 saylı ərazi partiya təşkilatının sədri Xanım Əliyeva və 15 saylı ərazi partiya təşkilatının sədri Bəhram Qurbanov Yeni Azərbaycan Partiyasının ictimai-siyasi proseslərdə fəal mövqeyi ilə seçildiyini qeyd ediblər.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Rəşad Abbaszadə partiyanın VII qurultayından sonra görülən işlərdən və qarşıda duran əsas vəzifələrdən danışıb. Konfransda YAP Ağdam rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib. Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# Sabitlik və inkişaf gələcəyə inam yaradır






Sentyabrın 14-də Yeni Azərbaycan Partiyası (YAP) Kürdəmir rayon təşkilatının XII konfransı keçirilib. Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, abidənin önünə gül dəstələri düzülüb. Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP Kürdəmir rayon təşkilatının sədri Ayaz Cəbrayılov hesabat məruzəsi ilə çıxış edib. O qeyd edib ki, hesabat dövründə təşkilat qarşıya qoyulan vəzifələrin icrası istiqamətində məqsədyönlü fəaliyyət göstərib. Bu müddətdə üzvlərin ictimai-siyasi fəallığının artırılması, partiya sıralarının genişləndirilməsi və ərazi partiya təşkilatları arasında işbirliyinin gücləndirilməsi diqqət mərkəzində olub.

Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı Elşən Həsənli vurğulayıb ki, Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi siyasi kurs Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir. Həyata keçirilən ardıcıl və məqsədyönlü siyasətin nəticəsi olaraq Azərbaycan ərazi bütövlüyünü və suverenliyini tam bərpa edərək dövlətçilik tarixinin ən mühüm nailiyyətlərindən birinə imza atıb. Yeni Azərbaycan Partiyası da ölkənin ictimai-siyasi həyatında fəal iştirak edir və həyata keçirdiyi məqsədyönlü fəaliyyətlə cəmiyyətin geniş dəstəyini qazanıb.

YAP İdarə Heyətinin üzvü Tofiq Cahangirov Yeni Azərbaycan Partiyasının keçdiyi inkişaf yolundan, partiyanın ölkənin ictimai-siyasi həyatında oynadığı mühüm roldan və Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın əldə etdiyi tarixi nailiyyətlərdən danışıb. Rayon təşkilatının hesabat dövründəki fəaliyyətini müsbət dəyərləndirən T.Cahangirov qarşıdakı dövrdə təşkilata uğurlar arzulayıb.

Çıxış edən şəhid anası Simuzər Bağıyeva, "Bakı prospekti 20" ünvanı üzrə ərazi partiya təşkilatının sədri, "Kürdəmir Gənclər Evi" Sosial Xidmət Müəssisəsinin direktoru Nicat Ağarəhimov bildiriblər ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tam təmin edilib. Ölkəmiz yeni hədəflərə doğru inamla irəliləyir.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Fəsli Nəbiyev Yeni Azərbaycan Partiyasının Kürdəmir rayon təşkilatının qarşıya qoyulan vəzifələrin səmərəli icrası istiqamətində məqsədyönlü iş apardığını deyib. Konfransda YAP Kürdəmir rayon təşkilatının hesabat dövründəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib. Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.






# Yeni Azərbaycan Partiyası inam və etimad ünvanıdır

**Sentyabrın 14-də Yeni Azərbaycan Partiyası (YAP) Nizami rayon təşkilatının XI konfransı keçirilib. Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb. Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.**

Konfransda YAP Nizami rayon təşkilatının sədr müavini Rəşadət Xalıqov hesabat məruzəsi ilə çıxış edib. Bildirilib ki, YAP Nizami rayon təşkilatı hesabat dövründə fəaliyyətini partiyanın Nizamnaməsi və Proqramından irəli gələn vəzifələr, eləcə də yerli təşkilatlar haqqında Əsasnamənin müddəaları əsasında təşkil edib. Ötən müddət ərzində ərazi partiya təşkilatları arasında fəaliyyətin əlaqələndirilməsi, üzvlərlə işin səmərəliliyinin artırılması, təşkilati proseslərin daha çevik və məqsədyönlü şəkildə qurulması istiqamətində ardıcıl tədbirlər həyata keçirilib. Eyni zamanda, partiya üzvlərinin ictimai-siyasi proseslərdə iştirakının genişləndirilməsi, yeni üzvlərin partiya sıralarına cəlb edilməsi, gənclərin və qadınların ictimai fəallığının artırılması diqqət mərkəzində saxlanılıb.

Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini Əli Əhmədov çıxışında YAP-ın ölkənin ictimai-siyasi həyatındakı mövqeyinə, Ulu Öndər Heydər Əliyevin siyasi irsinə, partiyanın keçdiyi inkişaf yoluna və qarşıda duran vəzifələrə toxunub. O vurğulayıb ki, Yeni Azərbaycan Partiyası yarandığı gündən ümumxalq partiyası kimi nüfuz qazanıb, sıralarını kəmiyyət və keyfiyyət baxımından daha da möhkəmləndirib. Həmçinin qeyd olunub ki, Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən siyasət müasir çağırışlar fonunda Azərbaycanın davamlı inkişafını təmin edir.

Nizami Rayon İcra Hakimiyyətinin başçısı Coşqun Cəbrayılov Yeni Azərbaycan Partiyasının Azərbaycanın ictimai-siyasi və sosial-iqtisadi inkişafındakı rolundan danışıb. O, Ümummilli Liderin ideyaları və zəngin dövlətçilik irsi əsasında inkişaf yolunda qətiyyətlə addımlayan müasir Azərbaycanın tarixinin ən qüdrətli dövrünü yaşadığını deyib. C.Cəbrayılov qeyd edib ki, ölkəmizin müasir mənzərəsi, dünyanın siyasi sistemində yeri və rolu xalqımızda böyük ruh yüksəkliyi, gələcəyə böyük inam yaradır.

YAP Nizami rayon təşkilatına uzun illər rəhbərlik etmiş, Milli Məclisin sabiq deputatı Sədaqət Vəliyeva, "Azər Manafov küçəsi 1" ünvanı üzrə ərazi partiya təşkilatının sədri, SOCAR-ın Təlim, Tədris və Sertifikatlaşdırma İdarəsinin rəisi Fuad Süleymanov, YAP Nizami rayon təşkilatının təsisçilərindən və ilk təsis iclasının iştirakçılarından biri, partiya veteranı Edilman Məmmədov, "Şirin Mirzəyev küçəsi 110" ünvanı üzrə ərazi partiya təşkilatının sədr müavini, şəhid Zakir Cəfərovun anası Kəmalə Abdullayeva qeyd ediblər ki, partiya üzvlərinin ictimai-siyasi proseslərdə fəallığı dövlət siyasətinin reallaşdırılması və qarşıya qoyulan məqsədlərin həyata keçirilməsində mühüm rol oynayır. Konfransda YAP Nizami rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib. Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# Azərbaycanın tərəqqi yolu yeni uğurlarla davam edir

***Sentyabrın 14-də Yeni Azərbaycan Partiyası (YAP) Qəbələ rayon təşkilatının XI konfransı keçirilib. Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.***





Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP Qəbələ rayon təşkilatının sədri Abil Ağasəfov hesabat məruzəsi ilə çıxış edib. O bildirib ki, 2021-ci ildə keçirilən VII qurultay partiyanın müasir çağırışlara uyğun fəaliyyətinin daha da gücləndirilməsi baxımından mühüm mərhələ olub. YAP Qəbələ rayon təşkilatı da bu siyasi kursun həyata keçirilməsinə töhfə vermək məqsədilə fəaliyyətini ardıcıl şəkildə gücləndirib. Partiya üzvləri ilə işin təşkili, maarifləndirici tədbirlərin keçirilməsi və sosial layihələrin həyata keçirilməsi əsas fəaliyyət istiqamətləri ni təşkil edir.

Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev Yeni Azərbaycan Partiyasının ölkənin ictimai-siyasi həyatında mühüm rol oynadığını və cəmiyyətin müxtəlif təbəqələrini öz ətrafında birləşdirdiyini qeyd edib. O bildirib ki, rayonda həyata keçirilən sosial-iqtisadi layihələr, abadlıq və quruculuq tədbirləri, eləcə də əhalinin sosial rifahının yüksəldilməsi istiqamətində görülən işlər rayonun inkişafına və vətəndaşların gündəlik həyat şəraitinin yaxşılaşdırılmasına mühüm töhfə verir.

Milli Məclisin deputatı Eyvaz Qurbanov qeyd edib ki, Yeni Azərbaycan Partiyasının yaradılması müasir müstəqil Azərbaycanın şanlı siyasi tarixinin mühüm səhifələrindən birini təşkil edir. O vurğulayıb ki, yarandığı gündən etibarən YAP ölkənin ictimai-siyasi həyatında mühüm rol oynamaqla yanaşı, bu gün təkcə Azərbaycanın deyil, regionun nüfuzlu siyasi təşkilatlarından biri kimi fəaliyyət göstərir.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Xaqani Tağıyev Yeni Azərbaycan Partiyasının VII qurultayından sonra görülən işlərdən danışıb. Qeyd edib ki, YAP Qəbələ rayon təşkilatı ərazi partiya təşkilatları ilə əlaqələrin daha da genişləndirilməsi, qarşılıqlı fəaliyyətin gücləndirilməsi və işin səmərəli təşkili istiqamətində məqsədyönlü tədbirlər həyata keçirir.

Daha sonra Təhsil işçiləri ərazi partiya təşkilatının sədri Arifə Bayramova, Səhiyyə işçiləri ərazi partiya təşkilatının sədri Ceyhun Əhmədov, Qəbələ Dövlət Peşə Təhsil Mərkəzi ərazi partiya təşkilatının sədri Reyhan Məmmədova, Vətən müharibəsi qazisi, Bunud ərazi partiya təşkilatının sədri Müşfiq Paşayev, partiya veteranı Azad Məmmədov, şəhid atası Cəlil Səfərçinov çıxış ediblər. Konfransda YAP Qəbələ rayon təşkilatının hesabat dövründəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib. Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# Mərkəzi Gömrük Hospitalı tibbi innovasiyaların tətbiq olunduğu qabaqcıl səhiyyə ocağıdır

***Bir tibb müəssisəsini tanımaq üçün onun haqqında yazılmış hesabatlara, statistik rəqəmlərə və təqdim olunan xidmətlərin siyahısına baxmaq kifayət etmir. Bunun üçün həmin xəstəxananın dəhlizlərindən keçmək, palatalarına daxil olmaq, həkimlərin pasiyentlərlə münasibətini görmək, reanimasiya və təcili yardım bölmələrindəki gərgin iş ritmini müşahidə etmək lazımdır. Elə bu məqsədlə də Mərkəzi Gömrük Hospitalına üz tutduq.***



İlk xoş təəssüratı buradakı səliqə-səhman, nizam-intizam və müasirlik yaratdı. Hospitalın ayrı-ayrı bölmələrində istifadə olunan tibbi avadanlıqlar, diaqnostika və müalicə imkanları, həkimlərin və orta tibb heyətinin işə münasibəti burada səhiyyənin yalnız maddi-texniki bazasının deyil, həm də insan kapitalının əsas meyar olduğunu göstərir. Diqqətimizi bir məqam cəlb edir - müasir avadanlıq öz-özlüyündə möcüzə yaratmır, onu idarə edən peşəkar həkim, düzgün qərar verən komanda və pasiyentin həyatına məsuliyyətlə yanaşan tibb işçisi həmin texnologiyanı real müalicə nəticəsinə çevirir. Mərkəzi Gömrük Hospitalında isə bu iki amilin - müasir texnologiya ilə peşəkarlığın vəhdəti hiss olunur.



Mərkəzi Gömrük Hospitalı 2008-ci ilin dekabrında fəaliyyətə başlayıb. İlk gündən qarşıya qoyulan məqsəd yalnız gömrük əməkdaşlarına tibbi xidmət göstərmək olmayıb. Bu gün hospital respublika əhalisinə xidmət göstərən, müxtəlif ixtisaslar üzrə müasir tibbi yardımın təşkil olunduğu mühüm səhiyyə müəssisələrindəndir. Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin rəisi, tibb xidməti general-mayoru Ceyhun Məmmədov söhbətimiz zamanı bu inkişafın ayrı-ayrı uğurlarına toxunaraq bunun əsasında uzunmüddətli və ardıcıl iş dayandığını vurğuladı. Hospitalda əsas istiqamətlərdən biri müasir tibbin ən mürəkkəb sahələrində xidmətlərin inkişaf etdirilməsidir. Qaraciyər və böyrək transplantasiyası, açıq ürək əməliyyatları, invaziv kardiologiya, beyin ölümü donorlarından orqan köçürülməsi kimi istiqamətlər bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Bu, sadəcə, hospitalın fəaliyyəti deyil, eyni zamanda səhiyyənin imkanlarının genişləndirilməsi prosesinin bir hissəsidir.

Hospitalın rəisi baş həkim, tibb xidməti polkovniki Bəxtiyar Musayev isə hospitalın fəaliyyətini konkret rəqəmlərlə ifadə etdi. 74 çarpayılıq hospitalda 2025-ci ildə 150-dən çox qaraciyər və böyrək transplantasiyası, 600-dən çox açıq ürək əməliyyatı həyata keçirilib. Gün ərzində 27 koronar angioqrafiyanın və 10 stend əməliyyatının aparılması isə invaziv kardiologiyanın hansı iş yükü ilə fəaliyyət göstərdiyini təsəvvür etməyə imkan verir. Bu rəqəmlər ilk baxışda, sadəcə, statistika təsiri bağışlaya bilər. Amma hər bir rəqəmin arxasında bir insan taleyi dayanır. Elə buna görə də xəstəxananın uğurunu yalnız əməliyyatların sayı ilə ölçmək düzgün olmaz, əsas məsələ həmin əməliyyatların insan həyatına verdiyi nəticədir.

*Ardı Səh. 13*

# Mərkəzi Gömrük Hospitalı tibbi innovasiyaların tətbiq olunduğu qabaqcıl səhiyyə ocağıdır

Əvvəli Səh. 12

Hospitalın Reanimasiya şöbəsinə daxil olanda isə səhiyyənin ən ağır və məsuliyyətli sahələrindən birinin necə böyük gərginlik tələb etdiyi daha aydın görünür. Burada zaman başqa cür ölçülür. Bir neçə saniyə bəzən insan həyatının taleyini müəyyənləşdirə bilir. Reanimatoloqun qərarı, anestezioloqun peşəkarlığı, tibb bacısının diqqəti, bütün komandanın bir-birini tamamlaması kritik vəziyyətdə olan pasiyentin həyatının xilas edilməsində həlledici rol oynayır. Əməliyyatxana, Anesteziologiya və Reanimasiya şöbəsinin rəisi, anestezioloq-reanimatoloq Tural Sadıqov ilə söhbətimizdən də məlum olur ki, burada iş yalnız xəstənin vəziyyətini sabitləşdirməklə bitmir, həm də pasiyentin bütün həyati göstəriciləri fasiləsiz izlənilir, müalicə taktikasına vəziyyətə uyğun operativ dəyişikliklər edilir. Bu şöbədə çalışanların üzərinə böyük məsuliyyət düşür. Bunu 2026-cı ilin mayında yaşanan hadisə də təsdiqləyir. Bakı Dövlət Universitetinin 70 yaşlı professoru Hikmət Əlizadə iş yerində ürək nahiyəsində narahatlıq hiss etdikdən sonra hospitala çatdırılıb. Vəziyyəti ağırlaşıb, arterial təzyiqi kəskin aşağı düşüb, ürək döyüntüləri sürətlənib. Hospitala çatdırılarkən ürəyi dayanıb. Həkimlər dərhal reanimasiya tədbirlərinə başlayıblar. Onun üzərində təxminən 20-30 dəqiqə ürək masajı aparılıb. Pasiyent klinik ölüm vəziyyətindən çıxarıldıqdan sonra angioqrafiyaya götürülüb. Koronar damarlardakı tıxanıqlıq müəyyən edilib və invaziv kardiologiya şöbəsinin rəisi İlqar Tahiroğlu və komandası tərəfindən təcili müdaxilə həyata keçirilib. Bu hadisə bir daha göstərir ki, xəstəxananın ən böyük gücü yalnız cihazlarında deyil, həmin cihazların arxasında dayanan insanlardadır.



Ürək-damar xəstəlikləri zamanı həkimin verdiyi qərarın bir neçə dəqiqə ərzində insan həyatının gələcəyini müəyyənləşdirən anlar olur. Ürəyinə stend qoyulan Əlivahid Şıxəliyev də həmin gün belə anları yaşayıb. O, Mərkəzi Gömrük Hospitalında göstərilən tibbi xidmətdən və kardioloq İlqar Tahiroğlunun peşəkarlığından minnətdarlıqla danışır. Əlivahidin sözlərindən xəstəlikdən sonrakı rahatlıq və həkimə olan inam açıq hiss olunur. Onun üçün İlqar Tahiroğlu, sadəcə, tibbi müdaxilə həyata keçirən həkim deyil, ürəyinin yenidən normal fəaliyyət göstərməsinə, həyatına daha böyük inamla davam etməsinə kömək edən insandır. Pasiyentin həkiminə təşəkkürü tibdə ən səmimi qiymətləndirmələrdən biridir. Çünki xəstə həkimin əməliyyat otağında göstərdiyi peşəkarlığın nəticəsini həyatında hiss edir.

Hospitalda olduğumuz gün diqqətimizi çəkən hadisələrdən biri də Lənkərandan gələn Əlövsət Babayevin taleyi oldu. Əlövsət bir gün əvvəl əməliyyat olunmuşdu. Amma bu gün onun üçün yalnız əməliyyat günü deyildi, həm də doğum günü idi. Bir insanın doğum günündə xəstəxana otağında olması ilk baxışda kədərli görünə bilər. Lakin Əlövsətin yaşadığı hiss tamam başqa idi. O, həmin günə, sadəcə, bir yaşını da artırdığı tarix kimi yox, həyatının yenidən başlandığı gün kimi baxırdı. Onun üzündə əməliyyatdan sonrakı yorğunluqla yanaşı, böyük bir rahatlıq və minnətdarlıq hiss olunurdu. Söhbət zamanı həkimi Kənan Əsədov haqqında danışarkən söylədiyi bir cümlə isə yaddaşımızda qaldı: "Mənə ikinci həyatı Kənan Əsədov verdi". Bu, bəlkə də bir həkim üçün eşidilə biləcək ən böyük təşəkkürdür. Çünki həkim xəstəyə yalnız tibbi yardım göstərmir, bəzən o, insanın itirmək üzrə olduğu ümidi geri qaytarır. Əlövsət Babayevin həmin gün doğum gününü qeyd etməsi də bu baxımdan xüsusi məna daşıyırdı. O, yeni yaşına yeni bir ümidlə qədəm qoyurdu.

Reanimasiya şöbəsində hər hadisənin öz hekayəsi var. Bəzən isə həmin hekayə tibb elminin imkanlarını belə sınağa çəkir. Baş həkim Bəxtiyar Musayev söhbətimiz zamanı belə hadisələrdən birini xüsusi xatırlayır - Qəzənfər Mirzəyevin həyat uğrunda mübarizəsini. 59 yaşlı Qəzənfər Mirzəyevin angioqrafiya zamanı ürəyi 45 dəqiqə dayanıb. Həkimlər bu müddət ərzində mübarizəni dayandırmayıblar. Ürək masajı və reanimasiya tədbirləri nəticəsində qan dövranı yenidən hərəkətə gətirilib.

Bəxtiyar Musayevin sözlərində həmin anların məsuliyyəti açıq hiss olunur. Həkim deyir ki, 45 dəqiqə ürək masajından sonra həyata qaytarılan xəstənin özünə gələcəyinə inanmaq çətin idi. Belə uzunmüddətli qan dövranının dayanması beyində və digər həyati vacib orqanlarda müəyyən fəsadlar yarada bilərdi. Amma Qəzənfər bütün bu narahatlıqları geridə qoydu. Avqustun 19-da əməliyyat olunan 59 yaşlı pasiyentin vəziyyəti yaxşıdır və yaxın günlərdə - cəmi bir-iki gün ərzində evinə yola salınması gözlənilir. Yenidən "dünyaya gələn" Qəzənfər Mirzəyev - "Bəxtiyar Musayevə və bütün həkimlərə sonsuz minnətdaram. Mənə yenidən həyat bəxş etdilər. Allah hamısından razı olsun", - deyir.



Təcili yardım əməkdaşlarının işi də eyni dərəcədə yüksək məsuliyyət tələb edir. Onlar üçün pasiyentin hospitala gətirilməsi müalicənin başlanğıcıdır. Təcili yardım şöbəsinin rəisi Füzuli Abışov deyir ki, ağır vəziyyətdə olan insanın düzgün qiymətləndirilməsi, lazımi şöbəyə operativ yönləndirilməsi və həkim komandasının işinin koordinasiyası bəzən həyatla ölüm arasındakı fərqi müəyyən edir. Hospitalda təcili yardım və reanimasiya əməkdaşlarının peşə hazırlığının artırılması istiqamətində keçirilən təlimlər də təsadüfi deyil. Tibb işçiləri ilə yanaşı, təcili yardım sürücüləri, sanitarlar və digər əməkdaşlar üçün ilkin həyat dəstəyi - BLS üzrə nəzəri və praktiki təlimlərin keçirilməsi bütöv komandanın fövqəladə vəziyyətlərə hazırlığını artırır. Ağır vəziyyətdə olan xəstə üçün hospitalın qapısından reanimasiya otağına qədər keçən hər saniyənin qiyməti var.

Bizimlə söhbət edən ayrı-ayrı pasiyentlərdən və onların yaxınlarından eyni təşəkkür ifadəsini eşitmək mümkündür. Onlar həkimlərin diqqətindən, çətin vəziyyətdə yanlarında olmasından, müalicə prosesinin izah edilməsindən, tibb personalının münasibətindən danışırlar. Bəzi xəstələr üçün həkimin bir kəlmə təsəllisi, bir tibb bacısının qayğısı ən güclü dərmandan belə qiymətli olur. İnsan xəstəxanaya sağlam getmir, o, narahatlıqla, qorxu ilə, bəzən isə ümidsizliklə gəlir. Buna görə pasiyentin müalicə ilə yanaşı, insani münasibətə də ehtiyacı var.

Mərkəzi Gömrük Hospitalının fəaliyyətində xüsusi diqqətçəkən istiqamətlərdən biri orqan transplantasiyasıdır. Transplantasiya adi cərrahi əməliyyat deyil. Burada yalnız yüksəkixtisaslı cərrahların olması kifayət etmir. Donorun müəyyənləşdirilməsindən orqanın götürülməsinə, laborator və immunoloji müayinələrdən əməliyyata, reanimasiya mərhələsindən sonrakı uzunmüddətli müşahidəyə qədər bütöv bir sistem işləməlidir. Bu baxımdan, hospitalda qaraciyər və böyrək transplantasiyalarının genişləndirilməsi Azərbaycan səhiyyəsinin mühüm nailiyyətlərindən biridir. 2025-ci ildə burada 150-dən çox qaraciyər və böyrək transplantasiyasının həyata keçirilməsi bu sahənin sistemli fəaliyyət istiqamətinə çevrildiyini göstərir. Bundan əlavə, 22 iyul 2025-ci ildə Mərkəzi Gömrük Hospitalına ürək transplantasiyası əməliyyatlarının həyata keçirilməsi üçün icazə verilməsi transplantologiyanın yeni mərhələsinə keçid baxımından mühüm hadisədir. Meyit donorlarından orqan transplantasiyalarının icbari tibbi sığorta çərçivəsində həyata keçirilməsi də bu sahənin sosial əhəmiyyətini artırır. Burada söhbət yalnız tibbi texnologiyadan getmir, həm də başqa bir insanın həyatını davam etdirmək üçün öz orqanının bağışlanmasına razılıq verməsindən, donor ailələrinin ağır qərarından, həkimlərin böyük məsuliyyətindən, nəhayət, bir insanın həyata yenidən bağlanmasından gedir. Transplantasiya - tibbin insan həyatına verdiyi ən böyük ümidlərdən biridir.

Hospitalda uşaq cərrahiyyəsi istiqamətində görülən işlər də xüsusi diqqət çəkir. Uşaq Cərrahiyyəsi şöbəsinin rəisi, cərrah və uroloq Vüsal Cəfərovun rəhbərliyi ilə mürəkkəb anadangəlmə patologiyaların və təcili cərrahi vəziyyətlərin müalicəsi həyata keçirilir. Yeni doğulmuş körpədə təxminən 10 santimetr ölçüdə büzdüm sümüyü teratomasının çıxarılması, 10 yaşlı uşağın qaraciyərində exinokokk kistasının əməliyyat olunması, anadangəlmə penil əyriliyin aradan qaldırılması, 11 aylıq körpənin ürək qüsuruna görə əməliyyat edilməsi - bunların hər biri pediatrik cərrahiyyənin nə qədər böyük məsuliyyət tələb etdiyini göstərir. Burada ən kiçik pasiyentin belə taleyi bütöv komandanın diqqətində olur.

Hospitalın kardiologiya və ürək-damar cərrahiyyəsində qazandığı nəticələr də diqqətəlayiqdir. Qafqaz regionunda ilk dəfə Mitral Clip prosedurunun həyata keçirilməsi, beşaylıq körpəyə ağciyər qapağının stenozu ilə bağlı balon valvuloplastikanın aparılması, yüzlərlə açıq ürək əməliyyatının icrası bu sahədə formalaşmış peşəkar potensialın göstəriciləridir. Burada bir tərəfdən ən mürəkkəb ürək-damar patologiyaları müalicə olunur, digər tərəfdən yeni doğulmuş uşaqların sağlamlığı üçün müasir diaqnostika imkanlarından istifadə edilir. Yeni doğulmuşların kompleks müayinəsi proqramında pediatr, kardioloq, nevroloq və oftalmoloqun müayinələri, beyin ultrasəsi və exokardioqrafiya, laborator analizlər kimi xidmətlərin bir araya gətirilməsi də erkən diaqnostikaya verilən önəmin göstəricisidir.

Hospitalın travmatologiya və ortopediya komandası da mürəkkəb klinik hallarla işləyir. Ağır yol-nəqliyyat hadisəsi nəticəsində çoxsaylı travmalar alan 61 yaşlı Reyhan Pənayevanın müalicəsi zamanı bud sümüyünün açıq parçalı sınığı və digər ağır zədələnmələr mərhələli şəkildə cərrahi yolla müalicə edilib. 94 yaşlı Vəsmə Əhmədovaya bud-çanaq oynağının bipolyar endoprotezləşdirilməsinin uğurla həyata keçirilməsi, ikitərəfli diz artroplastikası və digər mürəkkəb əməliyyatlar ortopediya xidmətinin imkanlarını göstərir.

Mərkəzi Gömrük Hospitalının fəaliyyəti tibbi xidmətlərlə məhdudlaşmır. Autizm spektr pozuntusu olan uşaqlar üçün tibbi-sosial aksiyalar, valideyn himayəsindən məhrum uşaqların tibbi müayinəsi, şəhid ailələri və qazilər üçün pulsuz tibbi-sosial tədbirlər, gömrük əməkdaşlarının genişmiqyaslı tibbi müayinədən keçirilməsi, qanvermə aksiyaları və vaksinasiya kampaniyaları hospitalın sosial məsuliyyətini nümayiş etdirir. Belə tədbirlər müalicənin yalnız xəstəlik yarandıqdan sonra aparıldığını göstərir. Sağlamlığın qorunması, profilaktika və insanların maariflendirilməsi də səhiyyənin mühüm vəzifəsidir.

Səhiyyənin inkişafı üçün ən böyük sərmayə insana qoyulan kapitaldır. Mərkəzi Gömrük Hospitalında isə bu sərmayənin nəticəsini hər gün əməliyyat otaqlarında, reanimasiya palatalarında, laboratoriyalarda, həkim kabinetlərində, ən başlıcası isə həyata qayıdan insanların gözlərində görmək mümkündür. Hospitalın ən böyük uğuru da məhz budur: insan həyatını qorumağı öz fəaliyyətinin əsas meyarına çevirmək.

# Qafqaz İslam Ordusunun Bakı Zəfəri



Bakı işğaldan azad edilməsəydi, bu şəhərin indi Azərbaycanın paytaxtı olması sual altında qalardı. Çünki bolşeviklər Bakını Azərbaycandan ayıraraq, onu muxtar şəhərə çevirmək istəyirdilər. Qafqaz İslam Ordusu sentyabrın 13-dən 14-nə keçən gecə Bakı üzərinə başlanan növbəti hücumla qarşıya qoyulan vəzifələri uğurla yerinə yetirdi. Elə həmin günün axşamı Denstervilin qoşunu gəmilərlə Bakını tərk edərək Ənzəliyə qayıtdı. Sentyabrın 15-də isə döyüşlər o qədər də uzun sürmədi. Həmin gün Sentrokaspi Diktaturası məğlub oldu. Bakının azad olunması üçün türk-Azərbaycan qüvvələrinin apardıqları iki günlük əməliyyat parlaq qələbə ilə başa çatdırıldı. Artıq Bakının işğaldan azad olunmasından 108 il ötür. Tarixdən bizə məlumdur ki, 1918-ci il sentyabrın 15-də ağır döyüşlərdən sonra Qafqaz İslam Ordusu Azərbaycan xalq könüllü dəstələrinin köməyi ilə Bakını azad edib. Şəhər Stepan Şaumyanın bolşevik-daşnak rejimindən sonra hakimiyyəti ələ keçirmiş menşevik-daşnak tör-töküntülərindən - "Sentrokaspi diktaturası"ndan təmizləndi. 1918-ci il sentyabrın 17-də Fətəli xan Xoyski kabinetinin təşkilindən üç ay sonra Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Bakıya köçdü. Bakı paytaxt elan olundu. Azərbaycan Xalq Cümhuriyyətinin hakimiyyət dairəsi genişləndi. Tariximizin ən şanlı səhifələrindən olan Azərbaycan Xalq Cümhuriyyətinin qurulması və sonrakı mövcudluğunda Bakının azad edilməsi mühüm rol oynamışdır. Çox böyük strateji mövqeyə malik olan Bakıya o dövrdə olan maraq və diqqəti nəzərə alsaq, onun azad edilməsinin də heç də asan olmadığını anlamaq olar. Belə bir tarixi yaşamış Azərbaycan mövcud olan zaman kəsiyində yaşantılarını salnamələr əsasında diqqətdən keçirib. Bu gün həmin hadisədən bir əsrdən artıq zaman ötsə də, Azərbaycan tarixinin müəyyən bir hissəsi olan 15 sentyabrı xatırlamaq zəruri məqamlardandır.1918-ci il mayın 28-də Azərbaycanın müstəqilliyi elan edildi və Azərbaycan Xalq Cümhuriyyəti quruldu. Gəncə şəhəri Azərbaycanın müvəqqəti paytaxtı elan edildi. Həmin zaman Bakı yadellilərin əlində idi və Azərbaycan dövlətinin şəhəri azad etmək üçün kifayət qədər qüvvəsi olmadığından xarici yardıma ehtiyac duyulurdu. Osmanlının hərbi naziri Ənvər paşanın qardaşı Nuru paşanın komandanlığı altında Qafqaz hərəkatı başladı. Tarixi mənbələrdə qeyd olunduğu kimi, cərgələrini yerli əhalidən doldurmaqdan və Bakı şəhəri azad edildikdən sonra problem yaranmasın deyə, ordu Qafqaz İslam Ordusu adlandırıldı. Hərəkatın hüquqi-siyasi təməlini Batum müqaviləsi təşkil edirdi.



## QAFQAZ İSLAM ORDUSUNUN AZADLIQ MİSSİYASI

Nuru Paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusu Bakının işğaldan azad olunmasında müstəsna rol oynayıb. 1918-ci ilin mayında Azərbaycanın müstəqilliyinin elan olunmasına baxmayaraq, ölkə ərazisinin bir hissəsi, Bakı və ətraf rayonlar hələ də erməni-bolşevik işğalı altında idi. Belə bir şəraitdə özünün çox ağır durumuna baxmayaraq, Osmanlı dövləti Azərbaycanın ərazi bütövlüyünü təmin etmək məqsədilə Nuru Paşanın komandanlığı ilə hərbi qüvvələrini bura göndərib. Qafqaz İslam Ordusu Gəncədən azadlıq yürüşünü başlamaqla, bolşevik-daşnak qüvvələrini darmadağın etməklə, nəhayət, 1918-ci il sentyabrın 15-də Bakı şəhərinə daxil olub. Bakı camaatı sentyabrın 15-də Qafqaz İslam Ordusu ilə birgə şəhərə daxil olub. Mənbələrdə qeyd olunduğu kimi, Nuru paşanın verdiyi əmrə əsasən, şimal Cəbhəsində yerləşən 15-ci piyada diviziyası komandanının sərəncamında 38 alay, 2 süvari alayı, Azərbaycan türklərindən ibarət süvarilər və milis batareyaları var idi. Qalan bütün hərbi qüvvələr 13-14 sentyabr gecəsində qərb cəbhəsinə göndərildi. Bakı cəbhəsindən əsl hücuma keçəcək 5-ci Qafqaz piyada diviziyasının tabeliyindəki 9, 10, 13 və 56-cı piyada alaylarının orduları bütün günü bölgədəki dəmir yolunun ətrafında olan vadilərdə düşmən kəşfiyyatçılarından gizlənərək keçirdi. Cəbhədəki topçu dəstəsinin böyük bir bölüyü də 5-ci Qafqaz piyada diviziyasının tabeliyinə verildi. Üstəlik iki diviziyanın sərəncamındakı hərbi qüvvələrin münasibətində də böyük bir qeyri-sabitlik var idi. Qərb cəbhəsindəki 1.500 metrlik sahədə dörd alay döyüşəcəkdi. Belə dar bir sahədə bu qədər ordunun döyüş qabiliyyətini tam göstərərək müharibədə iştirakı bir qədər çətin olardı. Təbii ki, Qafqaz İslam Ordusu bu azadlıq yürüşünə başlayarkən, azərbaycanlı əhali də ərzaqdan tutmuş silaha qədər kömək edirdi. Çoxları da öz cavan övladlarını Qafqaz İslam Ordusunun tərkibinə vuruşmağa göndərirdi. Ona görə təbii ki, bir tərəfdən dinc əhali, bir tərəfdən Qafqaz İslam Ordusu mənfur düşməni Azərbaycan torpağından çıxarmaq üçün əlindən gələni etdi. Ümumilikdə, Qafqaz İslam Ordusu Azərbaycan xalqına qarşı S.Şaumyanın başçılıq etdiyi daşnak-bolşevik rejiminin həyata keçirdiyi soyqırımların dayandırılmasında və Azərbaycan Xalq Cümhuriyyətinin tarixində, xüsusilə milli ordunun yaranmasında və formalaşmasında mühüm rol oynamışdır. Sentyabrın 16-da parlaq qələbə münasibətilə türk-Azərbaycan hərbi hissələrinin paradı keçirildi. Paradda Nuru paşa, Xəlil paşa, general Ələğa Şıxlinski, polkovnik Həbib bəy Səlimov, Azərbaycan parlamentinin, hökumətinin üzvləri və Bakı və ətraf kəndlərin sakinləri iştirak edirdilər. Paraddan sonra adları çəkilən şəxslər və hökumət rəsmiləri qoşun bölmələrinin müşayiəti ilə Bakıya daxil oldular. Möhtəşəm və tarixi qələbədən sonra Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin paytaxtı sentyabrın 17-də Gəncədən Bakıya köçürüldü. Beləliklə, Azərbaycanda dövlət quruculuğunun əsas mərhələsinə start verildi.



## AZƏRBAYCAN VƏ TÜRK QARDAŞLIĞININ RƏMZİ

1918-ci il sentyabrın 15-də Bakının işğaldan azad edilməsi Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı tarixinə yazılan şanlı səhifələrdəndir. Bakının azad edilməsi əhəmiyyətinə görə Cümhuriyyətin elan edilməsindən sonra ikinci böyük tarixi hadisəyə çevrildi. Şəhərin azad edilməsi Azərbaycan və türk silah qardaşlığının rəmzi idi. Qardaşların birliyi Bakıya dair iyrənc planları darmadağın etdi. Bu hadisə göstərdi ki, Azərbaycan və Türkiyə birgə hərəkət etdikdə heç kim onları dayandıra bilməz. Milli ruhu yüksələn azərbaycanlılar Azərbaycanın şimal torpaqları çarizm tərəfindən işğal edildikdən sonrakı bütün dövrdə ilk dəfə olaraq Bakı küçələrində başlarını dik tutaraq, özlərinə güvənərək gəzməyə başladılar. Bu gün də biz qardaş ölkələrin birlik və dostluğunu görürük.Azərbaycanın çətin günlərində Türkiyə Azərbaycanın yanında oldu. Bu gün Azərbaycan müstəqil dövlətdir və dost qardaş ölkələrlə sıx diplomatik əlaqələr qurmuşdur. Dostluq və qardaşlığa söykənən Azərbaycan Türkiyə münasibətləri bu gün daha yüksək bir mərhələdədir. Azərbaycan növbəti dəfə müstəqillik qazandıqdan sonra hər il sentyabrın 15-də təkcə Bakıda deyil, Şamaxıda, Göyçayda və digər rayonlarda ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olan türk əsgərlərinin məzarları dövlət səviyyəsində ziyarət olunur.

Ulu Öndər Heydər Əliyevin ikinci dəfə Azərbaycanda siyasi hakimiyyətdə qayıdışından sonra dövlətlərarası əlaqələrin artmasına, əməkdaşlığın genişlənməsinə xüsusi diqqət yetirilmişdir. "Bir millət, iki dövlət", - deyən Ulu Öndər Heydər Əliyevin dövlətlərarası yaratdığı qardaşlıq münasibətləri bu gün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən çox yüksək səviyyədə davam etdirilir. Bu birliyin və qardaşlığın sarsılmaz nümunəsinin Vətən müharibəsində bir daha şahidi olduq. "Biz Azərbaycanın yanındayıq. Hadisələrə müdaxilə edənlər öndə bizi görəcəklər!", - söyləyən Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan əsl qardaşlıq nümunəsi göstərdi. 2021-ci ilin iyunun 15-i Şuşa Bəyannaməsinin imzalanması Azərbaycanın müstəqillik tarixinə əbədi həkk olundu və Azərbaycan-Türkiyə münasibətlərində keyfiyyətcə yeni bir dövrün başlanğıcını qoydu. Bu mühüm tarixi sənəd ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin təntənəsi oldu və dövlətlər arasında əməkdaşlığın strateji əhəmiyyət kəsb edən sahələrini əhatə edir. Dövlət başçısı "Birgə Bəyannamədə tarixi Qars müqaviləsinə istinad edilir", - deyə bildirib. 44 günlük Vətən müharibəsində Türkiyə Azərbaycanın haqq işini dəstəkləyərək həm siyasi, həm də mənəvi baxımdan ona dəstək oldu. Kökləri dərin olan bu dostluq və qardaşlıq sarsılmazdır. Bu gün Azərbaycan zəfər çalmış dövlətdir və öz siyasi iradəsi ilə bütün dünyada nüfuza sahibdir. İşğaldan azad olunan torpaqlarımızda müstəqil Azərbaycan Bayrağı dalğalanır. Xalqımız öz torpaqlarına sahibdir və bu torpaqlarda böyük abadlıq-quruculuq işləri aparılır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Qlobal ticarət risk altında: El Nino dünya iqtisadiyyatını hədələyir

Panama kanalında tarixin ən ağır quraqlığının yaratdığı böhrandan cəmi iki il sonra təbii su yolu yenidən ciddi təhlükə ilə üzləşib. Güclənən El Nino iqlim hadisəsi kanalı qidalandıran yağışların azalmasına və su anbarlarında ehtiyatların tükənməsinə səbəb ola bilər. Qeyd edək ki, El Nino Sakit okeanın ekvatorial hissəsində dəniz suyunun səth temperaturunun qeyri-adi şəkildə isinməsi ilə bağlı böyük iqlim hadisəsidir.



## Kanalın fəaliyyəti sudan asılıdır

Misirdəki Süveyş kanalından fərqli olaraq, Panama kanalı fəaliyyətini əsasən şirin su ehtiyatları hesabına həyata keçirir. Təxminən 80 km uzunluğunda olan su yolu Atlantik və Sakit okeanları birləşdirir və gəmilərin hərəkəti üçün üç dəst şlüzdən istifadə olunur. Məlumat üçün qeyd edək ki, şlüz su kanalında və ya çayda gəmiləri müxtəlif hündürlükdəki su səviyyələri arasından keçirmək üçün istifadə olunan xüsusi qurğudur. Məsələn, Panama kanalında gəmi okeandan kanala daxil olur. Şlüzün qapıları bağlanır, suyun səviyyəsi qaldırılır və gəmi yuxarı səviyyəyə çıxır. Sonra başqa şlüz vasitəsilə aşağı salınaraq digər okeana keçir.

Şlüzlərin işləməsi üçün əsas su mənbələri Qatun və Alajuela su anbarlarıdır. Hər gəminin kanaldan keçidi zamanı milyonlarla litr su sərf olunur. Buna görə də yağıntıların azalması və su anbarlarının səviyyəsinin aşağı düşməsi birbaşa kanalın buraxılış qabiliyyətinə təsir göstərir. Şimal-Şərq Universitetinin mülki və ətraf mühit mühəndisliyi üzrə dosenti Samuel Munozun sözlərinə görə, su ehtiyatları azaldıqda kanal rəhbərliyi suya qənaət etmək üçün keçidinə icazə verilən gəmilərin sayını azaltmalı olur. Bu isə qlobal gəmiçilik sistemində zəncirvari problemlərə səbəb ola bilər.

## İsti hava və yağıntı çatışmazlığı nələrə səbəb olur?

Panamada iqlim göstəriciləri də vəziyyətin mürəkkəb olduğunu göstərir. Smithsonian Tropik Tədqiqat İnstitutunun monitorinq şəbəkəsinin məlumatına görə, may ayından etibarən ölkədə müşahidələrin başladığı dövrdən bəri ən yüksək hava temperaturlarından bəziləri qeydə alınıb. May, iyun və iyul aylarında temperatur göstəriciləri rekord və ya rekorda yaxın səviyyələrə çatıb. Bununla yanaşı, həmin dövrdə Panamanın əksər hissəsində yağıntılar orta göstəricidən xeyli aşağı olub. Monitorinq şəbəkəsinin rəhbəri Stiven Paton bildirib ki, xüsusilə kanal ətrafındakı bəzi müşahidə məntəqələrində yağıntı səviyyəsi rekord və ya rekorda yaxın minimum göstəricilərə düşüb.

Panama Kanalı İdarəsi 15 sentyabrdan 32 gəmi ilə məhdudlaşdırmağı planlaşdırır. Bu göstəricilər 2023-2024-cü illərdəki quraqlıq dövründə tətbiq edilən tədbirləri xatırladır. Həmin vaxt kanaldan gündəlik keçən gəmilərin sayı bəzi dövrlərdə 22-yə qədər azaldılmışdı. 2026-cı ildə isə kanalda orta hesabla gündə 34-35 tranzit qeydə alınıb. Lakin El Nino güclənməkdə davam edərsə, su səviyyəsinin daha da aşağı düşməsi və məhdudiyyətlərin sərtləşdirilməsi ehtimalı var.

## Tranzit üçün milyonlarla dollar ödənilir

Kanalda məhdud sayda keçid yeri olması gəmiçilik şirkətləri arasında ciddi rəqabət yaradıb. Bəzi şirkətlərin prioritet keçid əldə etmək üçün milyonlarla dollar ödədiyi bildirilir. Panama Kanalı İdarəsi yaxın vaxtlarda bəzi gəmilərin xüsusi bazar ehtiyaclarını qarşılamaq məqsədilə hərraclarda 1 milyon dollardan çox vəsait ödədiyini təsdiqləyib. Qeyd edək ki, daha əvvəl isə bir tankerin prioritet keçid üçün 4 milyon dollardan çox haqq ödədiyi barədə məlumat yayılmışdı.

Panama kanalında keçid imkanlarının məhdudlaşması gəmiçilik şirkətlərini daha uzun alternativ marşrutlara yönəldir. Vortexa şirkətinin baş neft bazarı analitiki Rohit Rathodun sözlərinə görə, uzunmüddətli keçid paketlərinə və böyük hərrac büdcələrinə malik olmayan bir çox yükdaşıyıcı Afrikanın cənubundan keçən marşrutu, yəni Ümid burnunu seçir. Onun sözlərinə görə, 2026-cı ilin avqustunda Asiyaya istiqamətlənən qaz daşıyıcılarının təxminən yarısı Panama kanalı əvəzinə Ümid burnundan keçib. Bu, son on ilin ən yüksək göstəricisidir.

## Həll yolu varmı?

Panama kanalın gələcəkdə su çatışmazlığı ilə üzləşməməsi üçün daha uzunmüddətli həll yolları üzərində də işləyir. Panama Kanalı İdarəsinin planına əsasən, Rio İndio ərazisində yeni su anbarının yaradılması nəzərdən keçirilir. Layihənin məqsədi həm yaxınlıqdakı icmaların su təminatını yaxşılaşdırmaq, həm də əhalinin yarıdan çoxunun və kanalın fəaliyyətinin növbəti 50 il ərzində su ilə təmin olunmasına kömək etməkdir. Lakin layihəyə qarşı çıxan ekoloji fəallar da var. Onlar yeni su anbarının zəruri olmadığını düşünür və alternativ olaraq Bayano gölü kimi mövcud su mənbələrindən istifadəni təklif edirlər.

Bütün bu hadisələr fonunda ABŞ Milli Okean və Atmosfer Administrasiyasının İqlim Proqnozlaşdırma Mərkəzi son proqnozunda El Nino hadisəsinin gücləndiyini bildirib. Qurumun qiymətləndirməsinə görə, 2026-2027-ci illərin payız və qışında Şimal yarımkürəsində daha güclü El Nino hadisəsinin baş verməə ehtimalı 90 faizdən yüksəkdir. Norveçin gəmiçilik, dəniz nəqliyyatı, enerji və maliyyə bazarları üzrə ixtisaslaşmış investisiya bankı və analitik şirkəti Clarksons Securities isə öz son araşdırmasında El Ninonun artıq Yaxın Şərqdəki tutum məhdudiyyətləri və geosiyasi gərginliklərlə üzləşən gəmiçilik sektoru üçün əsas risklərdən birinə çevrildiyini qeyd edib.

Beləliklə, nəticə etibarilə, El Nino yalnız iqlim hadisəsi kimi deyil, qlobal ticarət və logistika üçün ciddi iqtisadi risk kimi də təhlükə ehtiva edir. Panama kanalında su çatışmazlığının yenidən dərinləşməsi gəmi marşrutlarının uzanmasına, daşınma xərclərinin artmasına və nəticə etibarilə müxtəlif məhsulların dünya bazarındakı qiymətlərinə təsir göstərə bilər. Bu da özlüyündə dünya iqtisadiyyatı üçün yeni dövrün başlanğıcı deməkdir.

**_Lalə Mehralı_**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “ictimai və dövlət maraqlarının müdafiəsi “ istiqaməti çərçivəsində hazırlanıb*

# Polşa təhlükənin bir addımlığında

Dünyanın əksər bölgələrində baş verən qarşıdurmalar arasında ən amansızı Rusiya-Ukrayna müharibəsi hesab olunur. Hər gün tərəflər arasında yüzlərlə hərbçi həyatını itirir, mülki vətəndaşlar canlarından və əmlaklarından olur, şəhər və qəsəbələr məhv edilir. Müharibə isə bitmək bilmir. Əksinə, siyasi təhlilçilərin gəldikləri qənaətə görə, Rusiya-Ukrayna müharibəsi sərhədlərini aşaraq Avropanı əhatə edə bilər. Artıq müharibənin ilkin işartıları görünür. Bir neçə dəfə Rusiyaya məxsus hücum dronları Latviya, Estoniya, Rumıniya, Polşa, Almaniya və digər Avropa ərazilərində görünür. Almaniyanın Leypsiq hava limanında Rusiyanın dronunun uçuşlar həyata keçirməsi daha təhlükəli vəziyyət yaradıb. Çünki Almaniya bu hücumu Rusiyanın ölkənin ərazisinə basqını kimi qiymətləndirib və hücuma cavab olaraq Rusiyanın nümayəndiklərinin və mədəniyyət mərkəzlərinin bağlanmasına qərar verib. Almaniyanın xarici işlər naziri Yohann Vadeful bildirib ki, Bonn şəhərindəki Rusiya konsulluğunun bağlanmasına göstəriş verəcək. Bundan əlavə, Berlindəki ”Rusiya evi” ilə bağlı müqaviləyə də xitam veriləcək. Bir çox müşahidəçinin fikrincə, bu mərkəzdən casusluq fəaliyyəti və Rusiya təbliğatının yayılması üçün istifadə olunub. Vadeful həmçinin Rusiya vətəndaşlarının ölkəyə girişinə nəzarətin sərtləşdiriləcəyini açıqlayıb. Vadeful Rusiyanın Almaniyadakı səfiri Sergey Neçayevi Xarici İşlər Nazirliyinə çağırdığını bildirib.

Almaniyanın sərt addımlarına Rusiya tərəfindən cavab özünü çox gözlətməyib. Rusiya xarici işlər naziri Sergey Lavrov bildirib ki, Qərbin Rusiyaya qarşı Leypsiq hava limanındakı dron hücumu ilə bağlı ittihamları əsl müharibənin başlanğıcıdır. Sergey Lavrov qeyd edib ki, Böyük Vətən müharibəsi başlamazdan əvvəl Almaniya, indi etdiyi kimi diplomatik nümayəndəliklərini bağlamışdı. Rusiya xarici işlər nazirinin sözlərinə görə, Berlin ”yenə müharibə istəyir” və ”tarixin dərsləri heç öyrənilməyib”.

Rusiyanın Almaniyanın sayıqlığını yoxlamaq üçün istifadə etdiyi dron Polşa ərazisində də təhlükəli vəziyyətlər yaradıb. Bu ölkəyə olan dron hücumlarının intensivliyi nəhayət BATO-nu hərəkətə gətirib. Hərbi alyans Rusiyanın PUA-larla Polşanın hava məkanına daxil olması ilə əlaqədar Şimali Atlantika müqaviləsinin 4-cü maddəsini tətbiq edib. Bu barədə Polsat telekanalına Polşa hökumətinin sözçüsü Adam Şlapka məlumat verib.

”The Telegraph” nəşri iddia edir ki, Rusiya Polşanın kritik infrastruktur obyektlərini raket və ya dronlarla hədəfə ala bilər. Həmçinin rusiyalı hərbçilərin Polşa sərhədini keçərək ölkə ərazisinə daxil olması ehtimalı da istisna edilmir. Mənbələrin məlumatına görə, Moskvanın məqsədi gərginliyi artırmaq və Qərb ölkələrini Ukraynaya hərbi yardımı dayandırmağa məcbur etməkdir. Nəşrin həmsöhbətlərinin qiymətləndirməsinə əsasən, belə bir ssenari yaxın aylarda həyata keçirilə bilər.

Polşanın ”Onet” nəşri Prezident Karol Navrotskiyə yaxın mənbələrə istinadla yazıb ki, Vaşinqton Varşavanı dəfələrlə belə bir



əməliyyatın mümkünlüyü barədə xəbərdar edib. Polşa Müdafiə Nazirliyinin rəsmisi də ”Onet”ə açıqlamasında Rusiyadan təxribat riskinin mümkünlüyünü təsdiqləyib. Bununla yanaşı, o vurğulayıb ki, Polşa artıq Rusiyaya NATO-nun sarsıdıcı cavab verməyə hazır olduğunu nümayiş etdirmək məqsədilə hərbi təlimlər keçirib.

Polşa Baş naziri Donald Tusk qarşıdakı aylarda Rusiyanın Polşa ərazisinə hücumlarını istisna etməyib. Baş nazir bu fikirləri Hökumətin Təhlükəsizlik Mərkəzində keçirilən görüşündə bildirib. Tusk qeyd edib ki, ”Rusiyanın hərəkətlərinin eskalasiyası fakt halına gəlir və onun təzahürləri sərhədimizə getdikcə daha da yaxınlaşır. Sərhəd keçid məntəqələrini iflic etmək cəhdi ilk belə hadisə deyil”.

Tusk güc strukturlarının rəhbərlərinə göstəriş verərək bildirib ki, bu gündən etibarən əhəmiyyətli dərəcədə gücləndirilmiş şəkildə hərəkət edəcəyimizin fərqində olmalıyıq: ”Axı, bilirik və gözləyə bilərik ki, qarşıdakı həftələr və aylar Rusiyanın çox gərgin hərəkətləri dövrü olacaq. Təəssüf ki, eskalasiyanın ərazimizə də şamil olunacağını istisna edə bilmərik. Təəssüf ki, indiyə qədər baş verən hadisələr, hətta bu ən pis ssenarilərin də mümkün olduğuna dair aylardır aldığımız məlumatları təsdiqləyir”.

Polşanın Baş naziri əhalini ayıq-sayıq olmağa çağırıb: ”Rusiya ölkə ərazisinə qəfil hücum edə bilər. Buna görə də, dəmir yollarında və ya müəssisələrdə dronların mümkün istifadəsinə və əməliyyatlarımızı pozmaq cəhdlərinə nə dərəcədə hazır olduğumuz barədə məlumat gözləyəcəyəm. Burada da oxşar vəziyyətlərin baş verə biləcəyini istisna etmirəm”.

Bütün bunlar onu deməyə əsas verir ki, Avropada yeni müharibə ocağının yaranması qaçılmazdır. Bu müharibədə kimin qalib, kimin məğlub olacağını isə demək isə çox çətindir. Çünki Rusiya nüvə silahına malikdir. Almaniya, Polşa NATO-nun üzvü olan dövlətlərdir. NATO-nun isə hərbi gücü Rusiyadan üstündür, həm də bu təşkilat nüvə silahına malikdir. Deməli, tərəflərdən biri məğlubiyyətin qaçılmaz olduğunu dərk etdiyi halda nüvə silahından istifadə edəcək. Nəzərə almaq lazımdır ki, Rusiya Prezidenti V.Putuin ”Rusiyasız dünya bizim nəyimizə lazıdımdır”, - deyə bəşəriyyəti təhdid etmişdir. Ona görə də, təəssüf hissi ilə qeyd etmək lazımdır ki, dünyamız qoca qurdların ağılsız hikkələri və iddiaları səbəbindən təhlükə ilə üz-üzədir.

**_İ.ƏLİYEV_**

SON SƏHİFƏ
SƏS
15 sentyabr
2026-cı il



# Məktəbdə süni intellekt dövrü başlayır: uşaqlar daha çox öyrənəcək, yoxsa düşünmək qabiliyyətini itirəcək?

ARAŞDIRMA



**Yeni tədris ili başlayarkən məktəblərdə dəyişən təkcə dərsliklər, sinif otaqları və tədris proqramları deyil. Şagirdlərin öyrənmə üsulu da sürətlə dəyişir. Bir neçə il əvvəl ev tapşırığını hazırlamaq üçün kitab, dəftər və internet axtarış sistemləri əsas vasitələr idisə, bu gün onların sırasına daha güclü bir alət əlavə olunub: süni intellekt.**

SİA mövzu ilə bağlı araşdırma edib. Şagird bir neçə saniyə ərzində süni intellektdən inşa yaza, riyaziyyat məsələsini həll edə, xarici dildə mətn hazırlaya və hətta təqdimat yarada bilər. Bu imkan ilk baxışdan təhsili asanlaşdıran böyük üstünlük kimi görünür. Ancaq məsələnin başqa tərəfi də var: uşaq bütün cavabları hazır şəkildə əldə etdikcə özü nə qədər düşünəcək?

Məhz bu sual hazırda dünyanın bir çox ölkəsində təhsil mütəxəssislərini düşündürür. Əvvəllər şagird bilmədiyi mövzunu öyrənmək üçün kitab axtarır, müxtəlif mənbələri oxuyur, müəllimdən soruşur və səhv etdikcə yenidən cəhd edirdi. İndi isə süni intellekt həmin prosesin böyük hissəsini onun əvəzinə həyata keçirə bilir. Bu isə təhsildə çox vacib bir fərqi ortaya çıxarır: məlumatı əldə etmək başqa şeydir, onu öyrənmək isə tamam başqa.

Şagird süni intellektdən hazır cavab götürə bilər, amma həmin cavabın necə əldə edildiyini anlamaya bilər. Daha təhlükəlisi isə cavabın yanlış olduğunu müəyyən etmək üçün kifayət qədər biliyə sahib olmaya bilər. Çünki süni intellekt nə qədər inkişaf etmiş olsa da, onun verdiyi hər cavab avtomatik olaraq doğru deyil. Bu səbəbdən gələcəyin şagirdi üçün yalnız məlumatlı olmaq kifayət etməyəcək. O, məlumatı yoxlamağı, müxtəlif mənbələri müqayisə etməyi və qarşısına çıxan informasiyanın doğru olub-olmadığını müəyyənləşdirməyi də bacarmalı olacaq.

## Dünyada yanaşma dəyişir

Süni intellektin təhsildə istifadəsi ilə bağlı dünyada artıq əsas müzakirə "şagird AI-dan istifadə etsin, yoxsa etməsin?" sualından uzaqlaşır.

Çünki texnologiyanı tamamilə məktəbdən kənarda saxlamaq getdikcə çətinləşir. Əsas məsələ onun necə və hansı məqsədlə istifadə olunmasıdır.

UNESCO generativ süni intellektin təhsilə təsiri ilə bağlı ayrıca rəhbərlik hazırlayıb. Təşkilat süni intellektin təhsildə insan mərkəzli yanaşma ilə tətbiq edilməsinin, müəllim və şagirdlərin bu texnologiyadan təhlükəsiz və səmərəli istifadə bacarıqlarının artırılmasının vacibliyini vurğulayır. Bu yanaşma əslində bir şeyi göstərir: dünya artıq süni intellekti məktəbdən tamamilə uzaqlaşdırmaq əvəzinə, onun yaratdığı yeni reallığa uyğunlaşmağa çalışır.

Bəzi ölkələrdə isə yanaşma daha sərtdir. Məktəblərdə smartfon istifadəsinə məhdudiyyətlər tətbiq edilir, süni intellektdən hazırlanan işlərin təqdim olunması ilə bağlı qaydalar müəyyənləşdirilir. Digər tərəfdən, bəzi təhsil sistemləri AI-nı şagirdin öyrənməsinə kömək edən əlavə vasitə kimi qəbul edir.

Yəni dünyada vahid model yoxdur. Lakin ortaq fikir getdikcə formalaşır: uşağı süni intellektdən uzaqlaşdırmaq əvəzinə, ona süni intellektlə işləməyi öyrətmək lazımdır.

## Bəs müəllimin rolu azalacaq?

Süni intellektin məktəbə daxil olması ilə ən çox müzakirə olunan məsələlərdən biri də müəllimin gələcəyidir. Əgər şagird istənilən mövzunu süni intellektə yazaraq izah etdirə bilirsə, müəllimin rolu nə olacaq?

Əslində texnologiyanın inkişafı müəllimi lazımsız etməkdən çox, onun rolunu dəyişə bilər. Müəllim artıq yalnız məlumat ötürən şəxs olmaq məcburiyyətində deyil. Onun əsas vəzifəsi şagirdin düşünmə prosesini istiqamətləndirmək, suallar vermək, yanlış nəticələri göstərmək və uşağın müstəqil düşünmə bacarığını inkişaf etdirmək ola bilər. Məsələn, şagirdə "Bu mövzuda inşa yaz" tapşırığı vermək əvəzinə müəllim ondan süni intellektin hazırladığı mətndəki səhvləri tapmağı, həmin məlumatı başqa mənbələrlə müqayisə etməyi və öz mövqeyini əsaslandırmağı istəyə bilər.

Belə olduqda süni intellekt şagird üçün "hazır cavab maşını" deyil, düşünmə prosesinin bir hissəsinə çevrilir.

## Əsas problem: uşaqların hamısı eyni imkanlara sahib deyil

Süni intellekt təhsildə bərabərliyi artırmaq imkanına da malikdir. Əlavə izaha ehtiyacı olan şagird mövzunu istədiyi qədər yenidən izah etdirə, daha sadə nümunə tələb edə və öz tempində öyrənə bilər. Amma burada başqa bir problem yaranır. Bütün uşaqların texnologiyaya çıxışı eyni deyil. Bir şagirdin şəxsi kompüteri, sürətli interneti və müxtəlif rəqəmsal platformalara çıxışı olduğu halda, başqa bir uşağın belə imkanları olmaya bilər.

Beləliklə, gələcəkdə təhsildəki fərqlərə daha bir amil əlavə oluna bilər: süni intellektdən istifadə imkanları arasındakı fərq. Bu isə xüsusilə məktəblər üçün ciddi məsələdir. Çünki texnologiya təhsildə bərabərliyi artırmaq əvəzinə, əksinə, imkan fərqini daha da böyüdə bilər.

## Valideyn üçün ən çətin sual

Süni intellektin məktəblərə daxil olması valideynlərin üzərinə də yeni məsuliyyət qoyur. Məsələn, uşaq ev tapşırığını edib. Valideyn də düşünür ki, dərsini hazırlayıb. Halbuki uşaq sadəcə tapşırığı süni intellektə yazdırıb və hazır cavabı köçürüb. Bu halda qiymət uşağın biliyini deyil, texnologiyadan istifadə bacarığını göstərir. Ona görə də valideyn üçün əsas sual "uşağım AI-dan istifadə edir, ya yox?" olmamalıdır. Daha vacib sual "uşağım AI-dan necə istifadə edir?" olmalıdır.

Əgər uşaq süni intellektdən mövzunu daha yaxşı anlamaq, əlavə nümunələr əldə etmək və səhvlərini yoxlamaq üçün istifadə edirsə, bu, öyrənməyə kömək edə bilər. Amma məqsəd yalnız hazır cavabı əldə edib tapşırığı təhvil verməkdirsə, burada artıq təhsil prosesi zəifləyir.

## İmtahanlar da dəyişməli olacaq

Süni intellektin məktəblərdə yaratdığı ən ciddi problemlərdən biri qiymətləndirmə sistemidir. Əgər şagird evdə istənilən yazılı tapşırığı AI vasitəsilə hazırlaya bilirsə, həmin iş onun real biliyini necə ölçə bilər?

Bu səbəbdən gələcəkdə qiymətləndirmənin də dəyişməsi ehtimalı artır. Şagirdin hazır mətn təqdim etməsindən çox, həmin mövzu barədə danışması, suallara cavab verməsi, fikrini əsaslandırması və prosesin özünü izah etməsi daha əhəmiyyətli ola bilər. Başqa sözlə, süni intellekt dövründə məktəblər uşağın "nə cavab yazdığını" yox, "niyə həmin cavabı verdiyini" daha çox qiymətləndirməyə məcbur qala bilər.

## Azərbaycanı nə gözləyir?

Azərbaycanda da bu prosesdən kənarda qalmaq mümkün deyil. Smartfon, internet, rəqəmsal platformalar və süni intellekt artıq uşaqların gündəlik həyatının bir hissəsinə çevrilir. Ona görə də məsələni yalnız qadağalarla həll etmək çətin görünür. Əsas suallar daha genişdir: Məktəblərdə süni intellekt savadlılığı ayrıca istiqamət kimi tədris olunmalıdırmı? Müəllimlər AI alətlərindən istifadə üzrə hazırlanmalıdırmı? Ev tapşırıqları yeni texnologiyaların yaratdığı reallığa uyğunlaşdırılmalıdırmı? İmtahan sistemi necə dəyişməlidir? Şagirdə AI-nın verdiyi məlumatı yoxlamaq və tənqidi qiymətləndirmək necə öyrədilməlidir? Bütün bunlar yaxın gələcəyin deyil, artıq bu günün suallarıdır. Çünki uşaqların süni intellektlə qarşılaşacağı gün gələcəkdə deyil. O gün artıq gəlib.

İndi seçim məktəbin qarşısındadır: uşağı bu texnologiyadan qorumaq üçün onu qadağan etmək, yoxsa uşağa texnologiyanın qarşısında öz düşüncəsini qorumağı öyrətmək?

Bəlkə də gələcəyin ən savadlı şagirdi bütün cavabları bilən yox, süni intellektin verdiyi cavabın nə vaxt doğru, nə vaxt yanlış olduğunu ayırd edə bilən şagird olacaq.

***Ayşən Vəli***

**Baş redaktor:**
**Bəhruz Quliyev**
Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
sesmediaqrup@gmail.com
sesqazeti@gmail.com
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62
Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.
Qəzet həftədə iki dəfə nəşr olunur
Tiraj: 2000